# Qurban bayramınız mübarək!

Xalq qəzeti
Xalqın qəzeti!
№ 117 (30811) 6 iyun 2025-ci il, cümə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Bakı – Tehran: Münasibətlər dostluğa, əlaqələr ümumi maraqlara əsaslanır



səhifə ⇨ 3

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



**Hörmətli həmvətənlər!**

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir.

Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2025-ci il**

## Balanslı enerji strategiyası: təhlükəsizlik və "yaşıl" keçid

**Prezident İlham Əliyev iyunun 2-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində çıxış edərək bildirib ki, bəzi ölkələrdə bu gün qazıntı yanacağı növləri ilə "yaşıl" enerji arasında olan balans nəzərə alınmır. Nəticədə, genişmiqyaslı enerji kəsilməsi, enerji sisteminin çökməsi baş verir. Burada daha mürəkkəb ssenarilər də müşahidə oluna bilər. Yəni bəzi addımları şərtləndirən meyillərə rəğmən həmin balansın qorunması düzgün siyasətdir.**



ardı səhifə ⇨ 7

## Azərbaycanın qlobal şahmat taxtasında praqmatik modeli



**Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi güc mərkəzləri arasında rəqabət dərinləşdikcə, kiçik və orta gücə malik dövlətlərin balanslaşdırılmış xarici siyasət yürütməsi həm çətinləşir, həm də strateji əhəmiyyət kəsb edir. Bu çərçivədə Azərbaycan son illərdə regional sabitliyin təminatçısı olmaqla yanaşı, həm Qərb dövlətləri, həm də qlobal Cənub ölkələri ilə paralel və çoxşaxəli əməkdaşlıq quraraq çoxvektorlu diplomatiyanın uğurlu modelini nümayiş etdirir.**

ardı səhifə ⇨ 3

## Mötəbər tarixi həqiqətlər məbədi



səhifə ⇨ 9

## Xalq şairi "Xalq qəzeti"nin redaksiyasında



səhifə ⇨ 10

# İllüziyalardan gerçəkliyə:
## Hayların Fransadan mədəd ummaq dövrü başa çatır



səhifə ⇨ 4

**Uzun onilliklər ərzində yürütdüyü işğalçılıq siyasəti səbəbindən regionda dalan vəziyyətinə düşən, iki qonşu ölkə – Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı olan, bunun nəticəsində iqtisadi inkişafdan, regional inteqrasiyanın üstünlüklərindən məhrum qalan Ermənistanda İkinci Qarabağ müharibəsindən sonra müxtəlif ölkələri ittiham etmək adi hal alıb.**

ardı səhifə ⇨ 4

## Cənubi Qafqaz:
## Regionda etimad mühitinin yaranmasına kim yaradır?




səhifə ⇨ 11

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

28 May - Müstəqillik Günü münasibətilə Monteneqro vətəndaşları adından və şəxsən öz adımdan Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edir, ölkənizin davamlı inkişafı və xalqınızın rifahı naminə ən xoş arzularımı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, Monteneqro ilə Azərbaycan arasında inkişaf etməkdə olan sıx və hərtərəfli münasibətlərə görə dərin təşəkkürümü bildirmək istərdim. Ənənəvi dostluq və qarşılıqlı hörmət ruhunda inkişaf etdirdiyimiz bu münasibətlər yüksəksəviyyəli müntəzəm təmaslarla möhkəmlənməkdədir. Bu, eyni zamanda, Monteneqronun azərbaycanlı dostlarımızla əməkdaşlığın dinamik inkişafına verdiyi əhəmiyyətin göstəricisidir.

Bu baxımdan, xüsusilə turizm və energetika sahələrində həyata keçirdiyimiz birgə layihələri yüksək qiymətləndiririk. Bu layihələr hər iki ölkənin iqtisadi inkişafına töhfə verir və sərmayələr davamlı uğurlu əməkdaşlığımız üçün möhkəm təməl yaradır. Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri yüksələn xətt üzrə davam edəcək, Monteneqro ilə Azərbaycan bu günün mürəkkəb geosiyasi şəraitində dostluq, etimad və qarşılıqlı maraqlara əsaslanan harmoniyalı əməkdaşlığın nümunəsinə çevriləcəkdir.

Bu əlamətdar gün münasibətilə Sizə və ölkənizə səmimi təbriklərimi, möhkəm cansağlığı, sülh və firavanlıq arzularımı çatdırır, Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Yakov MİLATOVİÇ,***
***Monteneqronun Prezidenti***

# Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) təşkilinin və keçirilməsinin təmin edilməsi məqsədilə **qərara alıram:**

**1** BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

### Təşkilat Komitəsinin sədri

Samir Nuriyev – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

### Təşkilat Komitəsinin üzvləri:

Anar Quliyev – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının milli koordinatoru

Sahil Babayev – Azərbaycan Respublikasının maliyyə naziri

Ceyhun Bayramov – Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Vilayət Eyvazov – Azərbaycan Respublikasının daxili işlər naziri

Fərəh Əliyeva – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Emin Əmrullayev – Azərbaycan Respublikasının elm və təhsil naziri

Hikmət Hacıyev – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Kəmaləddin Heydərov – Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Şahmar Mövsümov – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Teymur Musayev – Azərbaycan Respublikasının səhiyyə naziri

Zeynal Nağdəliyev – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Arif Səmədov – Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi

Şahin Bağırov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Vüqar Əhmədov – "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

Aygün Əliyeva – Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru

Eldar Əzizov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Səbinə Hacıyeva – Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi

Vüsal Hüseynov – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Elbay Qasımzadə – Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri

Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüqar Qurbanov – Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru

Ceyran Mahmudova – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru

Saleh Məmmədov – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri

Gülçöhrə Məmmədova – Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru

Zaur Mikayılov – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

İlqar Musayev – Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi

Əli Nağıyev – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Balababa Rzayev – "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri

Gülşən Rzayeva – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparatı rəhbərinin müavini

Umayra Tağıyeva – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Səadət Yusifova – Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi:

2.1. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planı hazırlayıb həyata keçirsin;

2.2. əməliyyat şirkətinin yaradılması ilə əlaqədar tədbirlər görsün.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan Tədbirlər Planının icrası ilə bağlı maliyyələşdirməni təmin etsin və digər zəruri məsələlərin həlli üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2025-ci il**

# "Qərbi Azərbaycan–Yurd yerimiz"





**Xaçmaz Rayon İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan-Yurd yerimiz" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

İcra Hakimiyyətinin başçısı Elnur Rzayev konfransın Qərbi Azərbaycan həqiqətlərinin təbliğində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Milli Məclisin sədrinin birinci müavini Əli Əhmədov qeyd edib ki, ermənilərin Cənubi Qafqaza köçündən sonra kütləvi deportasiyalar, soyqırımları soydaşlarımızı həmin yerlərdən didərgin salıb.

İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli ümummilli lider Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı bu gün görülən işlərin əsasını qoymasından, Prezident İlham Əliyevin soydaşlarımızın qayıdış hüququnun təmin edilməsi istiqamətində dəstəyindən danışıb.

Qurumun Ağsaqqallar Şurasının sədri, deputat Əhliman Əmiraslanov, Müşahidə şurasının sədri Misir Mərdanov və başqaları çıxışlarında bildiriblər ki, bu cür konfranslar Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir.

***

Dünən Xaçmaz rayonunda "Konstitusiya və suverenlik ili" çərçivəsində rayon icra hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan - Yurd yerimiz" adlı festival da keçirilib.

Festival çərçivəsində qonaqlar Qərbi Azərbaycanın tarixini, mədəniyyətini, mətbəxini özündə əks etdirən sərgi ilə tanış olub, aşıq el sənəti, yallı nümunələri və Qərbi Azərbaycana aid bədii qiraət nümunələrindən ibarət kompozisiyalara baxıblar.

Sonda tanınmış incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olunub.

***XQ***

# Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında



**İyunun 5-də Tacikistanın paytaxtı Düşənbədə Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

Tədbirdə çıxış edən Əli Əsədov gündəlikdəki iqtisadi, hüquqi və humanitar sahələrə aid məsələlərlə yanaşı, MDB-nin fəaliyyəti ilə bağlı büdcə və kadr məsələlərinə də diqqət çəkib. Humanitar əməkdaşlığı MDB çərçivəsində qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biri kimi qiymətləndirən Baş nazir, könüllülük hərəkatının inkişafı və bu sahədə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıb. "Məlum olduğu kimi, ötən ilin dekabrında Bakıda MDB-yə üzv dövlətlərin Könüllülük Hərəkatları Forumu uğurla təşkil olunub. Forumda MDB ölkələrindən gənclər fəal iştirak edib, çoxsaylı panel sessiyaları və dəyirmi masalar keçirilib" – deyə Ə.Əsədov əlavə edib.

İclas iştirakçılarının diqqəti, həmçinin 2025-ci ildə MDB çərçivəsində keçiriləcək mühüm mədəni və idman tədbirlərinə yönəldilib. Qeyd olunub ki, cari il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanın Gəncə və digər şəhərlərində III MDB Oyunları keçiriləcək. Bu Oyunlar 23 idman növünü əhatə edəcək. "Artıq Oyunların rəsmi internet saytı istifadəyə verilib və orada tədbirin hazırlıq prosesi, yarışların cədvəli və idman məkanları ilə bağlı məlumatlarla tanış olmaq mümkündür", – deyə Baş nazir bildirib.

Ə.Əsədov, həmçinin Laçın şəhərinin "2025-ci il üçün MDB-nin Mədəniyyət Paytaxtı" elan edilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiqləndiyini qeyd edib. Həmin plana əsasən, konfransların, konsertlərin, sərgilərin, teatr və kino festivallarının keçirilməsi, həmçinin müsabiqələrin və media turların təşkili nəzərdə tutulur.

Faşizm üzərində Qələbənin 80 illiyi münasibətilə həyata keçirilən tədbirlərdən danışan Baş nazir vurğulayıb ki, Azərbaycan xalqı bu Qələbəyə həm cəbhədə, həm də arxa cəbhədə əhəmiyyətli töhfə verib.

Ə.Əsədov, eyni zamanda, Azərbaycanın MDB-yə üzv dövlətlərlə iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsinə böyük önəm verdiyini xatırladaraq deyib: "Bu baxımdan Azərbaycan ilə MDB ölkələri arasında ticarət dövriyyəsinin müsbət dinamikasının qorunub saxlanılması sevindirici haldır. Belə ki, 2024-cü ildə ticarət dövriyyəsi 7 faiz artıb. Cari ilin ilk 4 ayının yekunlarına əsasən isə 43 faiz artım müşahidə olunur".

İclas iştirakçılarını Azərbaycanın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində atdığı addımlar barədə məlumatlandıran Baş nazir qeyd edib ki, xüsusilə gömrük və tranzit əməliyyatlarının rəqəmsallaşdırılmasına xüsusi diqqət yetirilir. Azərbaycan Avrasiyanın mühüm nəqliyyat-logistika mərkəzlərindən biri kimi "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafında əhəmiyyətli rol oynayır.



Azərbaycanda bərpaolunan enerji mənbələri sahəsində uğurla həyata keçirilən irimiqyaslı layihələr barədə danışan Ə.Əsədov vurğulayıb ki, Günəş və külək elektrik stansiyalarına dair imzalanmış müqavilələr 2030-cu ilə qədər ölkəyə əlavə 6 giqavat enerji təmin edəcək. "Eyni zamanda, Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ bölgələrində müxtəlif gücə malik su elektrik stansiyalarının tikintisi və istismara verilməsi hesabına hidroenerji potensialı daxili investisiyalar hesabına artırılır. Görülən işlər nəticəsində növbəti beş il ərzində bərpaolunan enerji mənbələrindən enerji istehsalı potensialının ikiqat artırılması planlaşdırılır," – deyə Baş nazir əlavə edib.

Sonda Baş nazir Əli Əsədov MDB çərçivəsində hökumətlərarası səviyyədə sıx əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu ifadə edib. O, bunun üzv dövlətlər arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərdiyini vurğulayıb.

İclasın yekununda MDB-yə üzv dövlətlərin hökumət başçıları tərəfindən bir sıra sənədlər imzalanıb.

***XQ***

# Əli Əsədov Tacikistan Prezidenti ilə görüşdə iştirak edib



**İyunun 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tacikistanın paytaxtı Düşənbə şəhərinə işgüzar səfəri çərçivəsində MDB Hökumət Başçıları Şurasının üzvlərinin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşündə iştirak edib.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

***XQ***

# Bakı – Tehran: Münasibətlər dostluğa, əlaqələr ümumi maraqlara əsaslanır

## İkitərəfli razılaşmalar birgə səylərlə icraya yönəldilib

**İran Prezidenti Məsud Pezeşkianın Qurban bayramı ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev ilə telefon danışığını, sadəcə, diplomatik etiket jesti kimi qiymətləndirmək azdır. Bizim fikrimizcə, bu telefon zəngini Məsud Pezeşkianın Prezident kimi aprelin 28-də Azərbaycana ilk rəsmi səfərində başlanan səmimi dialoqun davamı hesab etmək olar. Təkcə səmimi qonşuluq münasibətləri ilə deyil, həm də qardaşlıq atmosferi ilə müşayiət olunan Bakı görüşlərinin son 30 ildə iki ölkə arasında münasibətlərdə müşahidə olunan enişli-yoxuşlu siyasi "marafonun" uğurlu mərhələsinə vəsilə olduğu heç kəsdə şübhə doğurmur.**




M.Pezeşkianın İlham Əliyevlə telefon danışığında Azərbaycan–İran əlaqələrinin inkişafında hazırda dönüş nöqtəsinin olduğunu vurğulaması, birgə səylərlə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə dinamik surətdə inkişaf edəcəyinə ümidvar olduğunu bildirməsi Tehran və Bakının bundan sonra siyasi təmasların yalnız pozitiv tendensiyaya sadiqlik prinsipi əsasında davam etdiriləcəyinə inamı daha da möhkəmləndirir.

İİR Prezidentinin ölkəmizə rəsmi səfərini, səfər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılan səmərəli müzakirələri məmnunluqla xatırlaması da təsüdüfi deyildi. Onun məhz Azərbaycana səfərindən sonra Bakı–Təbriz aviareysinin bərpasının, Bakı–Tehran istiqamətində təyyarə reyslərinin sayının artırılmasının xalqlarımız arasında təmasların güclənməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə etməsi, bir növ, gələcəyə yönəlik böyük planların uğurla həyata keçiriləcəyi ilə bağlı verilən ismarıcdır.

Öz növbəsində, telefon danışığında Bakı görüşlərində aparılan müzakirələri yüksək qiymətləndirdiyini bildirən Azərbaycan Prezidenti imzalanan müqavilələrin, əldə olunan razılaşmaların həyata keçirilməsi üçün səylərin davam etdiriləcəyinə əminliyini vurğulayıb.

***

Bakı ilə Tehran arasında siyasi dialoqun intensivləşdiyi, əlaqələrin müsbət məcraya yönəldiyi indiki mərhələdə, xüsusilə, enerji, ticarət və nəqliyyat sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi hər iki ölkənin maraqlarına uyğundur. Bunu İİR Prezidenti Məsud Pezişkian Azərbaycana rəsmi səfərində ayrıca vurğulamışdı: "Həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə əməkdaşlığın dərinləşməsi iki qardaş xalqın marağındadır. Ümid edirəm ki, Bakıda müzakirə olunan və olunacaq məsələlər, verəcəyimiz tapşırıqlar bizim əlaqələrimizi daha da gücləndirəcək".

Bəli Azərbaycan ilə İran arasında səmimi dialoq mühitinin mövcudluğu danılmaz faktdır. Bu dialoqa inam və səmiyyət ruhu qatan isə iki ölkənin rəhbəri arasında əməkdaşlıqdan, müttəfiqlikdən daha irəli gedən qardaşlıq münasibətləridir. İkitərəfli münasibətlərdə məhz bu amil Məsud Pezişkianın Bakı görüşlərində İlham Əliyevə "Əziz qardaşım!" müraciəti ilə özünü qabarıq şəkildə büruzə verdi. Əminliklə deyə bilərik ki, belə səmimi təmaslara köklənmiş səfər son dövrlərədək rəsmi Tehranın Azərbaycana yönəlik və heç də birmənalı olmayan siyasəti ucbatından tərəflər arasında yaranmış bəzi anlaşılmazlıqların aradan qaldırılmasında həlledici rol oynadı.

İkitətrəfli əlaqələrin yeni mərhələyə qədəm qoyması faktını bölgə ölkələri də qəbul edirlər. Azərbaycan, Ermənistan istisna olmaqla, regionun bütün dövlətləri, o cümlədən İranla yüksək səviyyəli siyasi-iqtisadi, humanitar əlaqələrin genişləndirilməsində maraqlıdır. Rəsmi Tehran üçün də Bakı ilə əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Cənubi Qafqazın geostrateji əhəmiyyətini göz önünə gətirsək, burada siyasi dialoq mühitinin hər zaman aktuallıq kəsb etdiyini görərik.

***

Yenidən İİR Prezidentinin Bakıya məlum səfərinə qayıdaraq, oxuculara Prezident İlham Əliyevin bu səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürü kimi dəyərləndirməsini xatırlatmaq istərdik: "Biz əsrlər boyu bir məkanda yaşamışıq, bir dövlət çərçivəsində yaşamışıq. Yəni qohumluq əlaqələri də çox genişdir. Bu gün iki müstəqil dövlət kimi biz bölgəmizdə önəmli rol oynayırıq. Bölgə məsələlərinin bölgə ölkələri tərəfindən həll olunması da hər iki tərəfin fikridir və siyasətidir. Mən heç şübhə etmirəm ki, bu səfər bizim münasibətlərimizin inkişafında çox önəmli rol oynayacaq".

Burada diqqətçəkən məqamlardan biri üzərində dayanmağı vacib sayırıq. Məsud Pezeşkian İranın əvvəlki dövlət başçılarından fərqli olaraq, Azərbaycana münasibətdə daha açıq, səmimi yanaşma nümayiş etdirir. Onun Bakıda özünü doğma evində – Təbrizdə olduğu kimi hiss etdiyini dilə gətirməsi, Azərbaycan dilində danışması, Şəhriyardan şeir deməsi, xalqlarımızın ortaq tarixi köklərlə bir-birinə bağlılığını, oxşar milli-mədəni dəyərlərə malik olmalarını önə çəkməsi ölkəmizə və xalqımıza dost, qohum və qardaş kimi rəğbətinin ifadəsi idi – desək, yəqin, səhv etmərik. Qeyd etdiklərimiz iki dövlət və xalq arasında münasibətlərin işıqlı gələcəyini müjdələyən mesajlardır. Bu baxımdan, iki ölkə arasında formalaşmaqda olan müsbət tendensiya, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin yaxın və uzaq müttəfiqlərlə münasibətlər müstəvisində yürütdüyü düşünülmüş, praqmatik siyasət nəticəsində ərsəyə gəlir. Məhz dövlət başçımızın zərgər dəqiqliyi ilə hesabladığı diplomatik addımları sayəsində bu gün İran və Azərbaycan arasında əməkdaşlıq tellərinin möhkəmlənməsinə şahidlik edirik. Digər vacib amil isə iki ölkə arasında münasibətlərin, siyasi dialoqun keyfiyyətcə yeni və konstruktiv mərhələyə qədəm qoyması həm də regionda sabitlik və əməkdaşlığın perspektivləri baxımından ciddi əhəmiyyət kəsb etməsidir. İran və Azərbaycan arasında dialoqun intensivləşməsi strateji təməllər üzərində qurulub. Buraya yüksək səviyyəli siyasi təmaslar, regional layihələrdə koordinasiyalı fəaliyyət, sərhədyanı əməkdaşlıq və təhlükəsizlik məsələləri daxildir. Bu istiqamətlərin hər biri Bakı və Tehran arasında siyasi etimadın dərinləşməsinə xidmət edir. İndi əsas vəzifə səmimi və sağlam atmosferə köklənən ikitərəfli dialoqu davamlı etdirməkdən, gündəmi qorumaqdan ibarətdir.

***

Sonda onu da qeyd etməliyik ki, iki ölkə arasında münasibətlərin yeni məcraya yönəlməsi olduqca vacib geosiyasi amillərlə bağlıdır. Xüsusilə, post-müharibə reallıqları fonunda Azərbaycanın həm bölgədə, həm də beynəlxalq platformalarda apardığı uğurlu siyasəti, bütövlükdə, Cənubi Qafqazın siyasi-iqtisadi dirçəlişi üçün yeni mərhələni formalaşdırıb. Bu kontekstdən yanaşdıqda, rəsmi Tehran Azərbaycanla mehriban qonşuluq siyasətinin həm bölgədə nüfuzunun artmasına, həm də təhlükəsizlik maraqlarına xidmət etdiyini yaxşı başa düşür.

İran və Azərbaycan arasında sağlam siyasi dialoqun yeni mərhələsi bölgə ölkələri üçün də müsbət nəticələr vəd edir. O mənada ki, qarşılıqlı anlaşma regionda hərbi-siyasi gərginliklərin aradan qaldırılmasına imkan verir. Məsələyə həm də mədəni və humanitar əlaqələrin inkişafı prizmasından yanaşılsa, məlum olur ki, ortaq tarixi və mədəni irsə malik iki xalq arasında yaxınlaşma daha da dərinləşir. Yekun olaraq onu qeyd edə bilərik ki, İranla Azərbaycan arasında siyasi dialoqun yeni mərhələyə qədəm qoyması təkcə ikitərəfli münasibətlər üçün deyil, ümumilikdə, Cənubi Qafqaz və Yaxın Şərq üçün sabitlik və əməkdaşlığın möhkəm təməllər üzərinə transformasiyasını şərtləndirir.

İran Prezidenti Məsud Pezeşkianın Bakıya 28 aprel səfərindən və Azərbaycan Prezidenti İlham Əliyevlə srağagünkü telefon söhbətindən gəldiyimiz qəti qənaət budur ki, münasibətlərin davamlı və qarşılıqlı etimada əsaslanan şəkildə inkişafı yaxın gələcəkdə daha böyük layihələrin, regional təşəbbüslərin reallaşmasına zəmin yaradacaq. Bizdə bu əminliyi yaradan bütün məsələlər üzrə aydınlaşmış, səmimi qonşuluq və qarşıqlıqlı etimad mühitinə əsaslanan münasibətləri uğurlu perspektivə yön almasıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanın qlobal şahmat taxtasında praqmatik modeli



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın xarici siyasəti təkcə coğrafi mövqeyinə görə deyil, həm də siyasi çevikliyinə görə postsovet məkanında nümunə göstərilən dövlətlər sırasındadır.



Ölkəmiz eyni zamanda Avropa İttifaqı, NATO və Qərb dövlətləri ilə siyasi və iqtisadi əlaqələr saxlayır, enerji təhlükəsizliyi sahəsində strateji rol oynayır, digər tərəfdən isə Rusiya və Çinlə strateji tərəfdaşlıq münasibətləri qurub. İki fərqli geosiyasi düşərgə ilə eyni vaxtda işləmək Azərbaycanın diplomatik çevikliyini göstərsə də, dünya sistemində formalaşan yeni qütblər arasında incə tarazlığın qorunması ehtiyacını da ön plana çıxarır.

Qlobal Cənuba bağlı nisbətən inklüziv və balanslı missiya son illərdə, xüsusilə Ukrayna müharibəsindən sonra Rusiya tərəfindən daha çox ideoloji və qarşıdurma yönlü bir çalarla təqdim olunur. Moskva bu platformanı təkcə iqtisadi əməkdaşlıq imkanları kimi deyil, həm də Qərbə qarşı "qeyri-Qərb" bloku kimi qələmə verməyə başlayıb. Moskvanın siyasi ritorikasında Qlobal Cənub "qeyri-kolonial dünyanı" təmsil edən, Qərb hegemoniyasına qarşı çıxan cəbhə kimi təqdim edilir. Onun ritorikası, xüsusilə Afrika və Latın Amerikası ölkələrində rezonans doğurmağa hesablanıb. Lakin sual yaranır: Çin, Hindistan, Braziliya və Cənubi Afrika bu yanaşmaya, doğrudan da, şərikdirlərmi? Cavab, sadəcə "yox" deyil, eyni zamanda, "çox komplekslidir". Məsələn, Çin Qlobal Cənub platformasından, əsasən, öz iqtisadi gücünü artırmaq, yeni bazarlara çıxmaq və "Bir kəmər, bir yol" təşəbbüsünü təşviq etmək üçün istifadə edir. Qlobal Cənub Pekin üçün Qərbə qarşı müharibə meydanı deyil, daha çox iqtisadi təsir dairəsinin genişlənməsi üçün əlverişli alətdir. Çin ABŞ-la rəqabət aparsa da, bu rəqabət daha çox texnologiya, ticarət və təsir dairəsi səviyyəsindədir, birbaşa ideoloji qarşıdurma formatında deyil.

***

Yeri gəlmişkən, Rusiya ilə eyni blokda yer alan Braziliya və Cənubi Afrika daha çox daxili və regional balanslara əsaslanan siyasət yürüdür. Braziliya özünü heç bir halda Qərbə qarşı hər hansı siyasi ittifaqda görmək istəmir. Eyni ilə Cənubi Afrika da Rusiya ilə münasibətlərini tarixi kontekstdə saxlayaraq, Qərblə münasibətlərini sarsıtmaqda maraqlı deyil. Rusiya Qlobal Cənub platformasını geosiyasi qarşıdurma alətinə çevirmək istəsə də, digər tərəfdaşlar bu tendensiyaya ya səssiz qalır, ya da passiv müqavimət göstərirlər. Bu isə onu göstərir ki, layihənin gələcəyi yalnız Moskvanın iradəsindən deyil, üzv ölkələrin praqmatik və fərqli maraqlarından asılı olacaq. Hazırkı şərtlər daxilində Qlobal Cənub daha çox "mövcud nizamın korrektoru" funksiyasını yerinə yetirir, nəinki onun tam əvəzləyicisi rolunu oynayır. Azərbaycan isə bu mürəkkəb və ziddiyyətlərlə dolu qlobal mənzərədə özünəməxsus mövqe tutur. Bloklara qoşulmama fəlsəfəsini və çoxvektorlu xarici siyasət strategiyasını əsas götürən Bakı həm Qərb, həm də Qlobal Cənubla əməkdaşlığı paralel və rasional şəkildə inkişaf etdirir. Bu, təsadüfi və ya taktiki deyil, strateji və uzunmüddətli düşünülmüş bir yanaşmadır. Azərbaycanın diplomatiyası sərt güc yarışında tərəf tutmaq deyil, yumşaq güc vasitəsilə tərəfdaşlıq körpüləri qurmaq üzərində qurulub. Bu da ölkəmizi qlobal qeyri-müəyyənliklər dövründə etibarlı və balanslaşdırıcı aktora çevirir. Azərbaycan Avropa İttifaqı üçün enerji təhlükəsizliyinin mühüm təminatçısı kimi artıq özünü təsdiqləyib. TANAP, TAP, Orta Dəhliz, Cənub Qaz Dəhlizi kimi transmilli layihələr təkcə iqtisadi deyil, həm də siyasi baxımdan Azərbaycanın beynəlxalq nüfuzunu artıran geostrateji addımlardır. Eyni zamanda, 2024-cü ildə Bakının COP29-a ev sahibliyi etməsi Azərbaycanın qlobal ekoloji gündəmdə, yaşıl enerji keçidində və davamlı inkişaf ideyasında liderliyə iddialı bir ölkə olduğunu göstərdi.

Digər tərəfdən, Azərbaycan Rusiya və Çinlə rasional, qarşılıqlı faydalı və neytrallığa əsaslanan tərəfdaşlıq siyasəti yürüdür. Rusiya ilə Zəngəzur dəhlizi, regional təhlükəsizlik və nəqliyyat kommunikasiyalarının açılması məsələlərində dialoq aparılır. Çinlə isə "Bir kəmər, bir yol" təşəbbüsündə iştirak Azərbaycanın Asiya ilə Avropanı birləşdirən mühüm tranzit məkanına çevrilməsi baxımından strateji əhəmiyyət daşıyır. Lakin bu əməkdaşlıqlar heç vaxt üçüncü tərəfə qarşı siyasi təzyiq və ya təsir alətinə çevrilmir. Azərbaycan xarici siyasətini nə Moskvanın orbitinə, nə də Qərbin geosiyasi maraqlarına tabe etdirmir. Bu, Azərbaycanın tamamilə müstəqil və milli maraqlara əsaslanan praqmatik bir modelidir.

***

Beynəlxalq hüquq baxımından hər bir dövlətin istənilən təşkilata qoşulmaq və ya ondan çıxmaq hüququ var. Lakin bu hüququn praktik reallaşması geosiyasi şərtlərlə, diplomatik risklərlə və strateji maraqlarla sıx bağlıdır. Bundan əlavə, Azərbaycanın Qərblə dərin iqtisadi, ticarət və enerji əməkdaşlığı, beynəlxalq təşkilatlarla sıx əlaqələri və Avropa məkanına inteqrasiya səyləri perspektivə hesablanıb. Eyni zamanda, ölkəmiz Çin və Rusiya ilə də qarşılıqlı maraqlara əsaslanan, lakin qarşılıqlı asılılıq yaratmayan tərəfdaşlıq münasibətləri qurur. Bu isə Azərbaycanın öz suverenliyinə, milli təhlükəsizliyinə və beynəlxalq balansına olan həssas yanaşmasının göstəricisidir.

Nəticə etibarilə, Azərbaycan qlobal diplomatiyada "ya bizimləsən, ya onlarla" prinsipi ilə işləyən, keçmişdə qalmış soyuq müharibə paradiqmalarını qətiyyətlə rədd edir. Müasir dövrün çağırışlarına uyğun olaraq, Bakı həm regional güc mərkəzi, həm də beynəlxalq sabitləşdirici faktor kimi çıxış edir. Bütün bunlar Azərbaycanın həm Avropa ilə strateji enerji əməkdaşlığına, həm də Qlobal Cənubla ədalətə və suverenliyə əsaslanan diplomatik həmrəyliyinə əsaslanır.

Qlobal Cənubun Rusiya tərəfindən Qərbə qarşı ideoloji alyans kimi təqdim edilməsinə baxmayaraq, burada çoxtərəfli maraqlar, daxili ziddiyyətlər və strateji müxtəliflik bu iddianı zəiflədərək onun reallıqda geosiyasi "blok" funksiyasını yerinə yetirməsinə imkan vermir. Azərbaycan isə bu ziddiyyətli və çoxqütblü dünyada özünü heç bir güc mərkəzinə birbaşa bağlı olmayan, lakin hamı ilə işləməyə hazır olan rasional, çevik və prinsipial aktor kimi təqdim edir.

Son olaraq qeyd edə bilərik ki, Azərbaycanın xarici siyasətində nümayiş etdirdiyi suverenlik, balans və strateji uzaqgörənlik XXI əsr diplomatiyasının tələb etdiyi əsas keyfiyyətlərdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İllüziyalardan gerçəkliyə: Hayların Fransadan mədəd ummaq dövrü başa çatır

(əvvəli 1-ci səhifədə)

Müharibədə sarsıdıcı məğlubiyyətə düçar olan hakimiyyət məsuliyyətdən yayınmaq üçün xarici qüvvələri günahlandırmaq yolunu tutub. Bu tendensiya xüsusilə Rusiyaya, Qərb dövlətlərinə və regionda güc balansını dəyişən ölkələrə qarşı ittihamların artmasında özünü göstərir. Belə yanaşma isə Ermənistan cəmiyyətində revanşist hisslərin alovlandırılmasına və sülh prosesinin ləngidilməsinə xidmət edir.

Stenford Universitetinin professoru, politoloq Artur Xaçikyan isə fikirlərini bir qədər sərt ifadə edib. Fransanın rəsmi şəxslərinin Ermənistana səfərlərini şərh edən politoloq deyib: "Fransa bizə nə təklif edir? Konsulluq açmaq çox yaxşı işdir, amma konsulluq bizi necə qoruyacaq? Bloknotla? Qələmlə? Müsyö Makron dünyanı dolaşmaqdansa, birdəfəlik İrəvana gəlib desin: "Biz Ermənistana ərazi bütövlüyü ilə bağlı zəmanət veririk. Əgər Ermənistan ərazisinə hücum olarsa (?), Rusiyaya qarşı etdikləri kimi, sanksiyalar (?) tətbiq olunacaq. Buna bənzər razılaşma varmı? Onlar hərbi baza açacaqlarmı? Yoxsa, bizə kompüterdən istifadə etməyi öyrətmək üçün durbinli təlimatçılar gətirəcəklər? Fransızlardan çox konkret bir məsələ tələb olunur: Onlar Ermənistanın təhlükəsizliyinə təminat verəcəkləri, baza açacaqları, təminatçımız kimi çıxış edəcəkləri haqqında saziş imzaladıqları gün deyəcəm ki, hansısa addım atılıb".



Əlbəttə, əsas ittihamlar ermənilər üçün dövlət qurub yaratmış Rusiyaya yönəlib. Belə anlaşılır ki, haylar Rusiyanın BMT tərəfindən tanınmış suveren ərazilərini işğaldan azad etməyə qalxan Azərbaycanla savaşmasını gözləyirmişlər. Bundan əlavə, böyük erməni diaspor və lobbisinin, qanunverici və icraedici orqanında xeyli erməni dostlarının mövcud olduğu ABŞ da ittihamlardan kənarda qalmır. Moskva və Vaşinqtonun Ermənistanın bütün tələblərinə gözüyumulu şəkildə dəstək verməməsi İrəvanda məyusluq doğurub. Bəzi erməni siyasətçiləri açıq şəkildə bildirirlər ki, nə ABŞ, nə də Rusiya onların ümidlərini doğrultmayıb. Halbuki hər iki ölkə uzun illər Ermənistanın təhlükəsizlik, iqtisadiyyat və diplomatiya sahələrində əsas dayağı olublar. Bu gün isə eyni qüvvələrə qarşı yönələn ittihamlar, əslində, Ermənistanın illərlə qurduğu yanlış siyasətin fəsadlarının üzə çıxmasıdır. Bütün bunlar fonunda Ermənistan rəhbərliyi cəmiyyətdəki narazılığı xarici qüvvələri günahlandırmaqla ört-basdır etməyə çalışır.

İkinci Qarabağ müharibəsindən, xüsusilə lokal xarakterli antiterror tədbirlərindən sonra ermənilərin əsas hamisi rolunda Fransa çıxış edir. Yada salmaq yerinə düşər ki, Ermənistan parlamentinin sədri Alen Simonyan 2023-cü ilin sentyabrında Parisdə Avropa Parlamentinin sədri Roberta Metsola ilə görüşdən sonra Fransanın Hayastana göstərdiyi dəstəyə toxunaraq jurnalistlərə verdiyi açıqlamada açıq şəkildə demişdi: "Biz Fransanın Ermənistana göstərdiyi dəstəyi heç vaxt unutmuruq və unutmayacağıq". Bu bəyanat Azərbaycanın suveren ərazilərində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən dərhal sonra verilmişdi və Fransanın Ermənistana açıq siyasi və diplomatik dəstək göstərməsinə təşəkkür xarakteri daşıyırdı. Bu açıqlama, xüsusilə də Fransanın Ermənistanla hərbi-texniki əməkdaşlığı dərinləşdirməsi və Azərbaycana qarşı qeyri-obyektiv mövqeyi fonunda, beynəlxalq medianın və regional ekspertlərin diqqətindən yayınmamışdı. Simonyanın bu sözləri Ermənistanda Fransaya olan siyasi rəğbətin rəsmi səviyyədə etirafı kimi qiymətləndirilmişdi.

***

İndi isə ermənilər Fransadan da narazılıq etməyə başlayıblar. Ermənistan mediasında yer alan bəzi açıqlamaları oxuduqda bu qənaətə gəlmək mümkündür. Məsələn, "Alternativ layihələr" qrupunun həmtəsisçisi Vahe Ovannisyan sosial şəbəkə hesabında yazıb: "Azərbaycanla Fransa arasında böyük iqtisadi layihə həyata keçirilir. Söhbət bir neçə il əvvəl imzalanmış sazişlə "Total Energies" şirkətinin "Abşeron" qaz yatağının işlənməsində əsas pay sahibi olmasından gedir. Xatırladım ki, bu, bizi "xilas etməli" olan həmin Fransadır. Amma əsas sualların (nə üçün, kimdən və necə) cavablarını auditoriya heç vaxt eşitmədi".

V.Ovannisyan onu da bildirib ki, erməni xalqı dinc dəyişikliklər etməsə, hayları böyük fəlakət gözləyir: "Bu, bizim öz əlimizlə yaratdığımız fəlakətdir. Azərbaycanın, Türkiyənin, Fransanın, Rusiyanın və başqalarının bununla heç bir əlaqəsi yoxdur".

***

Əlbəttə, V.Ovannisyanın fikirləri Ermənistanın daxilində artmaqda olan məyusluq və çaşqınlığın göstəricisidir. Onun Fransaya ünvanlanan ittihamları Ermənistan cəmiyyətində illərlə formalaşdırılmış "xarici xilaskar" mifinin çökdüyünü nümayiş etdirir. İllər boyu Fransa Ermənistanda həm diplomatik-siyasi, həm də mədəni himayədar kimi təqdim olunub. Lakin "Total Energies"in Azərbaycanla əməkdaşlığı fonunda bu gözləntilərin reallıqla uzlaşmadığı üzə çıxıb. Ovannisyan faktiki olaraq etiraf edir ki, Ermənistanın aqibəti xarici qüvvələrin deyil, öz daxili yanlış siyasətinin nəticəsidir. Onun "bizim öz əlimizlə yaratdığımız fəlakət" sözləri bu gün Ermənistanın düşdüyü vəziyyətin əsl mahiyyətini açır. Bu yanaşma həm də daxili ictimai-siyasi transformasiyanın labüdlüyünə işarədir. Ermənilərin artıq xarici havadarlar əvəzinə, öz məsuliyyətlərini dərk etmələri çağırışı aydın şəkildə hiss olunur. Bu, real situasiyanın acı, lakin səmimi etirafıdır.

Artur Xaçikyanın Fransaya ünvanlanmış bu sərt tənqidi isə Ermənistan cəmiyyətində artan narazılığın ifadəsidir. Politoloq Parisin İrəvana verdiyi dəstəyin simvolik və diplomatik jestlərdən o yana keçmədiyini vurğulayır. Konsulluqların açılması, bəyanatlar və humanitar səfərlər reallıqda Ermənistanın təhlükəsizlik ehtiyaclarını təmin etmir. Xaçikyan konkret suallar qoyaraq bildirir ki, əgər Fransa Ermənistana həqiqi dəstək vermək istəyirsə, bunun real və praktik mexanizmləri haradadır? Hərbi baza, təhlükəsizlik zəmanəti və ya müdafiə sazişi olmadan, sadəcə, bəyanatlarla təhlükəsizlik təmin olunmur. Bu fikirlər, əslində, Ermənistanın illərlə öz təhlükəsizlik strategiyasını xarici dəstəyə bağlamasının iflasa uğradığını göstərir. Xaçikyanın ritorikası da göstərir ki, erməni cəmiyyəti artıq quru sözlərdən yorulub və konkret təminatlar tələb edir. Bu isə Ermənistanda yeni reallıq anlayışının formalaşmaqda olduğunu göstərir.

**Ermənistanda Fransaya qarşı səsələnən fikirləri XQ-yə şərh edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** bildirdi ki, bu gün beynəlxalq münasibətlər sistemində, sadəcə, ittifaqlar deyil, həm də etibarlılıq əsas rol oynayır. Onun sözlərinə görə, geosiyasi güc mərkəzləri artıq ritorikaya deyil, əmələ, sabitliyə və məsuliyyətə önəm verirlər: "Məhz bu səbəbdəndir ki, nəinki Fransa, hətta böyük güc mərkəzləri – Avropa İttifaqı, Çin və digər nüfuzlu dövlətlər Azərbaycanla əməkdaşlığa can atırlar. Çünki Azərbaycan bölgədə sabitlik və etibarlılıq nümunəsi göstərən, beynəlxalq hüquqa sadiq qalan, emosional deyil, rasional və məsuliyyətli siyasət yürüdən bir dövlətdir. Azərbaycan verdiyi sözə əməl, imza atdığı sənədə hörmət edən, ritorikadan daha çox nəticə ilə danışan ölkə kimi tanınır. Bununla yanaşı, ölkəmiz təqdim etdiyi layihələrlə – istər enerji təhlükəsizliyi, istər nəqliyyat-tranzit yolları, istərsə də ekoloji təşəbbüslər sahəsində qlobal gündəmə real töhfə verən azsaylı aktorlardan biridir. Ən nəhayət, Azərbaycan qarşıdurma yox,




əməkdaşlıq, bölücülük yox, inteqrasiya, qısnamalar yox, qarşılıqlı hörmətə əsaslanan münasibətlər təklif edir. Məhz bu səbəbdən dünya Azərbaycanla işləməyə üstünlük verir".

O.Mirzəyev qeyd etdi ki, erməni politoloqlar, o cümlədən Vahe Ovannisyan və Artur Xaçikyan son açıqlamalarında Ermənistanın nə daxildə, nə də beynəlxalq səviyyədə sistemli və güvəniləcək siyasət qura bilmədiyini açıq şəkildə etiraf edirlər: "Onlar Azərbaycanın regional güc mərkəzinə çevrilməsini, Fransadan tutmuş Çinədək müxtəlif istiqamətlərdə əməkdaşlıq qurmasını narahatlıqla izləyirlər. Lakin bu uğuru etiraf etməklə yanaşı, onu qeyri-ciddi ittihamlarla – "Fransanı aldatmaq", "böyük gücləri yönləndirmək" kimi absurd ideyalarla bağlamağa çalışırlar. Əslində, bu ritorika siyasi qısqanclığın və Ermənistanın öz xalqına verə bilmədiyi cavabların üzərinə çəkilən pərdədən başqa bir şey deyil. Bu siyasətçilər artıq öz cəmiyyətlərinə belə izah edə bilmirlər ki, niyə dünya Ermənistanın deyil, Azərbaycanın mövqeyini qəbul edir. Nəticədə isə İrəvan rəhbərliyi və ona yaxın dairələr təkcə Azərbaycanı deyil, artıq bütün müttəfiqlərini günahlandırmağa başlayıb".

Politoloq dedi ki, Ermənistan dəyişən reallıqlarla barışmaq əvəzinə, dünənə qədər "xilaskar" adlandırdığı Fransanı "xəyanətkar" elan edir: "İttihamların tonu o qədər sürətlə dəyişir ki, sabah bu siyahıya hansı ölkənin düşəcəyini proqnozlaşdırmaq belə mümkün deyil. Bu gün Fransanı, sabah Rusiyanı, birisi gün Avropa İttifaqını və İranı ittiham edən Ermənistan, əslində, təkcə dünya ilə deyil, öz siyasi gələcəyi ilə qarşıdurmadadır".

Müsahibimiz bildirdi ki, Azərbaycan isə təmkinli, ardıcıl və uzaqgörən siyasəti ilə həm bölgə ölkələrinin, həm də qlobal güclərin etimadını qazanır. Fransa ilə birgə həyata keçirilən "Abşeron" yatağı üzrə enerji əməkdaşlığı bu etimadın nəticəsidir: "Bu cür layihələr Azərbaycanı regionun yükü daşıyan yox, məsuliyyəti bölüşən liderinə çevirir. Azərbaycan təmkinli yanaşma nümayiş etdirən, hüququn aliliyinə söykənən və sülhə sadiq dövlətdir. Cənubi Qafqazda reallıqlar dəyişib. Bu reallıqlar Azərbaycanın liderliyi və əzmkarlığı ilə formalaşıb. Bunu qəbul edən ölkələr əməkdaşlıq masasında oturur, inkar edənlər isə beynəlxalq platformalarda hay-küy salmaqla məşğuldur".

*Səxavət HƏMİD*
*XQ*

Replika

# Tartüf, Xlestakov və vətənsiz Paşinyan




**Dahi Jan Batist Molyerin dünya dramaturgiyasının şah əsəri sayılan "Tartüf"ündəki eyniadlı obraz dindarlıq və mənəviyyatla qürrələnir, amma əslində, riyakar və saxtakardır. Tartüf sahib olmadığı bütün keyfiyyətlərin özündə cəmləşdiyini iddia edir. Obrazın faciəsi də məhz bundadır. Mahiyyətcə, Tartüf ilə Qoqolun şedevri sayılan "Müfəttiş"dəki Xlestakov obrazı bir-birini tamamlayır. Xlestakov səlahiyyətsiz, tamamilə təsadüfi bir adam olduğu halda, sanki mühüm dövlət məmuru kimi davranır və bu rola özü də inanır. Ətrafdakılar isə onun saxta nüfuzunu daha da böyüdürlər. Nəticədə müəllif yalanla qurulan hörmətin ironiyasını son dərəcə gözəl bədii notlarla təqdim edir.**

Ermənistan dövlətinin müxtəlif təmsilçiləri, o cümlədən baş nazir Nikol Paşinyan bütün beynəlxalq platformalarda Azərbaycanla sülhdən, regionda sabitlikdən danışır. Onlar özlərini barış tərəfdarı, mütərəqqi və proqressiv qüvvə kimi göstərməyə çalışırlar. Əlbəttə, bu cür mənasız sentimentalizmin səmimiyyətdən uzaq olduğu aydındır. Rəsmi İrəvan öz məkrini gec-tez büruzə verir. Çünki xislət xarabdır. Çünki "erməni xəstəliyi" adlı nəsnə var.

Azərbaycanda belə bir deyim var: "İlanın ağına da lənət, qarasına da." Bu deyimi asanlıqla erməni varlığına da şamil etmək olar: ermənінin pisi, yaxud yaxşısı olmur, onlar elə ümumən pisdirlər. İlk baxışda belə yanaşma erməni xalqına hörmətsizlik kimi görünə bilər. Halbuki, xalqın içində yaxşı adamların olmaması mümkünsüzdür. Məsələn, tanınmış erməni hüquq müdafiəçisi Georgi Vanyanı götürək. O, böyük utanc hissi ilə deyirdi ki, ermənilər Xocalı və digər azərbaycanlılara qarşı törədilən faciələrə görə üzr istəməlidirlər. Amma ölkəsində ona qarşı elə bir təqib aparıldı ki, məcburən Gürcüstana sığındı, ömrünü Tbilisinin küçələrində taksi sürməklə başa vurdu və dünyasını dəyişdi. Yəni, yaxşı erməniləri də görmüşük. Ancaq "azərbaycanlının, türkün yaxşısı olmur" deyənlərin çürük təbliğatı qarşısında onların səsi ya çıxmayıb, ya da çox zəif olub.

Qəribə səslənsə də, bu gün Azərbaycan üçün "yaxşı erməni" obrazı Nikol Paşinyandır. Əlbəttə, yadımızdadır ki, Nikol 2019-cu ildə "Qarabağ Ermənistandır, nöqtə" bəyanatı ilə sərsəmləmiş, "Cəbrayıla yol çəkmək" istəmiş, tabeliyində olan şəxslər "yeni ərazilər uğrunda yeni müharibə" şüarını irəli sürmüşdülər. Lakin 2020-ci ilin 44 günlük müharibə rüsvayçılığından və 2023-cü ilin lokal antiterror tədbirlərindən sonra müəyyən pozitiv impulslar verdiyini də görürük. Nə etmək olar, bəxtimizə başına-gözünə döyərək ağıllandıracağımız qonşu düşüb. İtalyan özünün isveçrəli, holland belçikalı, norveçli isveçli qonşusunu bizə vermir ki...

Bəli, Ermənistan rəhbərliyinin başına-gözünə döyə-döyə onu barışdan danışmağa vadar etmişik. Artıq erməni hakim siyasi elitasının dilindən "sülh" sözü düşmür. Bu duruma gətirmək Azərbaycanın böyük uğurudur. Əlbəttə, düşünsələr, barış barədə danışmaq erməni tərəfinin də uğuru sayıla bilər. Çünki onlar dinc, sakit həyat tərzinə öyrəşməyiblər; daim hansısa məkrli plan qurmağa, özlərininki olmayan nəyisə ələ keçirməyə cəhd ediblər. Dediyimiz kimi, xislətləri xarabdır.

Bu fonda Paşinyan obrazı ön plana çıxır. Özünün qeyri-ordinar, baş nazirə yaraşmayan, bəzən komik hərəkətləri ilə Nikol fərqli erməni obrazını təcəssüm etdirir. Diqqət edək: bu şəxs hazırda erməni saxta milli identikliyinin simvolu olan Erməni Apostol Kilsəsini ən sərt və aşağılayıcı ifadələrlə hədəfə alır, bütün etik normaları aşır. Amma biz onun bu davranışını dövlət başçısının davranışı kimi deyil, bir klounun hərəkəti kimi qəbul edirik.

Paşinyan Azərbaycan cəmiyyətində, böyük ölçüdə, kloun kimi simpatiya qazanıb. Əlbəttə, erməni düşüncə sistemi və intellektual kəsimi başqa nümunə ortaya qoya bilmirsə, bunda başqalarının günahı yoxdur. Bu kəsim Levon Ter-Petrosyan kimi avantürist, Robert Koçaryan və Serj Sarkisyan kimi cəlladlar yetişdiribsə, problemi özündə axtarmalıdır. Paşinyan isə bu əbləhlərlə müqayisədə müsbət obrazdır. Amma...

Əmma dediyimiz isə əvvəldə səsləndirdiyimiz atalar sözü ilə bağlıdır. Məsələn, Paşinyan İrəvan Dövlət Universitetindəki çıxışında deyir:

"Bilirsiniz nə başa düşdüm? 44 günlük müharibənin nəticəsində biz vətənimizin bir hissəsini itirdik, amma eyni zamanda daha suveren, daha müstəqil və daha özünə güvənən bir dövlət qazandıq."

Bu da onun "müsbət erməni" anlayışı! Vətənin bir hissəsini itiribmiş! Maraqlıdır, hansı vətəndən söhbət gedir? Ağdamdanmı, Füzulidənmi, Kəlbəcərdənmi, Cəbrayıldanmı, Laçındanmı? Bəlkə, söhbət "Artsax"dan gedir? Aydındır ki, o, Qarabağı nəzərdə tutur və bu baxışla müstəqil, özünə inamlı dövlət qazanmaqdan danışır. Ardınca da deyir ki, onu satqınlıqda günahlandırmaq haqsızlıqdır. Halbuki, doğma torpaqdan pay verənin satqın və xain adlandırılmaqdan başqa aqibəti yoxdur.

Başlıca məsələ haranı vətən adlandırmaqda və nəyi tələb etməkdədir. 1988-ci ildən vüsət alan "Miatsum" cəfəngiyyatına qədər Azərbaycan ermənilərin vətəni idi, Ermənistan isə azərbaycanlıların. Bu düzəni pozan biz deyildik. Müharibəni başlayıb, işğal edən də azərbaycanlılar olmayıb.

Əlqərəz, "vətəndən məhrum olmuş" Paşinyan tələbələr qarşısında çıxışında Ermənistan sərhədlərinin öz sərhədçiləri tərəfindən qorunduğundan ağız dolusu danışmağı da unutmur. Onun pafosu mənasız və gülməlidir. Sual olunur: "Vətəni itirən" lider necə sərhəd təminatından danışa bilər? O, hansı üzlə deyə bilər ki, özünə güvənən dövlətə sahibik? Dövlət həm də ordu deməkdir. Ermənistan ordusu işğal etdiyi torpaqlarda leş düşübsə, bunun nəyidir güvən verən? İndi leşi leş üstə yığılmış ordumu sərhədi qoruyacaq?

Bu sualları genişləndirmək olar, amma ehtiyac yoxdur. Vurğulamaq istədiyimiz Paşinyan timsalında erməni düşüncəsindəki natamamlıq və bəsitlikdir ki, bu da məkrdən, mənfi xislətdən qaynaqlanır. Belə mənfi xislət daşıyıcılarının isə vətəni olmur. Paşinyan da böyük ölçüdə vətənsizdir və Molyerin Tartüfü, Qoqolun Xlestakovu ilə müqayisədə daha miskin və rəzil durumdadır.

*Əvəz RÜSTƏMOV*
*XQ*

# Çinli qonaqlar Milli Məclisdə



**Milli Məclisin bir qrup deputatı iyunun 5-də Çin Xalq Siyasi Məşvərət Şurasının Quanqdonq Əyalət Komitəsinin sədri Lin Keqingin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri və Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Əmiraslanov Azərbaycanla Çinin qarşılıqlı əməkdaşlığa böyük maraq göstərdiyini deyib. O, ölkələrimiz arasında münasibətlərin strateji xarakterinə toxunub, əlaqələrimizin bugünkü yüksək səviyyəyə çatmasında hər iki ölkənin dövlət başçılarının mühüm rolunu vurğulayıb.

Lin Keqing göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib, səfəri ilə bağlı xoş təəssüratlarını bölüşüb.

Sonra deputat Ziyad Səmədzadə Çin iqtisadiyyatının özünəməxsus cəhətlərinə diqqət çəkib, onun qlobal iqtisadiyyatda artan rolundan danışıb.

*XQ*

# AHİK sədrinin Cenevrə görüşləri



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Cenevrədə keçirilən Beynəlxalq Əmək Konfransının 113-cü sessiyası çərçivəsində Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının baş katibi Luk Trianql və Beynəlxalq Əmək Təşkilatının İşçilərin fəaliyyəti bürosunun direktoru Maria Helena Andre ilə görüşlər keçirib.**

AHİK-in fəaliyyəti barədə ətraflı məlumat verən Sahib Məmmədov ölkəmizdə həmkarlar ittifaqları sistemində görülən işlər, işçilərin əmək hüquqlarının effektiv müdafiəsi, layiqli əmək şəraitinin təmin olunması istiqamətində reallaşdırılan tədbirlərdən danışıb.

"2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"na dair Azərbaycanla BƏT arasında tərəfdaşlıqdan bəhs edən Konfederasiya sədri sosial dialoq, əmək hüquqlarının müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təşviqi və dayanıqlı iqtisadiyyata ədalətli keçidin dəstəklənməsinin əhəmiyyətini vurğulayıb.

BHİK-in baş katibi Luk Trianql və BƏT-ACTRAV-nin direktoru Maria Helena Andre Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətini, aparılan islahatları yüksək qiymətləndirib, münasibətlərin səviyyəsindən razılıqlarını bildirib, əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

*XQ*

# Milli QHT Forumunun İsveçrə səfirinə açıq məktubu



**Azərbaycan Milli QHT Forumu İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Tomas Ştəliyə açıq məktub ünvanlayıb. Məktubda deyilir:**

"Hörmətli cənab Səfir,

Son vaxtlar İsveçrədə Azərbaycan əleyhinə fəaliyyətin genişlənməsi, İsveçrə parlamentinin Kantonlar Şurasının (Senatının) "beynəlxalq sülh forumu" adı altında Cənubi Qafqazda sülh və sabitliyə xələl gətirən, Ermənistanda kilsə başda olmaqla revanşistlərin mövqeyini müdafiə edən təkliflərlə çıxış etməsi müşahidə edilir.

Bu günlərdə Bern şəhərində İsveçrə Protestant Kilsəsinin erməni kilsəsi ilə birlikdə Azərbaycanın suveren ərazilərində "erməni irsi" mövzusunda təşkil etdiyi tədbiri də bu seriyanın davamı kimi qəbul edirik.

Azərbaycana qarşı nifrət üzərində qurulan bu iftira kampaniyalarını hiddətlə qarşılayırıq. Belə təşəbbüslər, xüsusilə də İsveçrə kimi beynəlxalq hüquqa hörmət etdiyini iddia edən bir ölkənin parlamenti tərəfindən irəli sürüləndə, qəbul ediləndə və ya İsveçrə cəmiyyətinin bir hissəsi olan kilsə tərəfindən təşviq ediləndə, İsveçrə ərazisində keçiriləndə, obyektivlik və bitərəflik prinsipinə zidd olaraq, ikili standartların bariz nümunəsinə çevrilir. 21-ci əsrdə Avropanın mərkəzində məsələlərə etnik və dini təəssübkeşlik prizmasından yanaşılması qəbuledilməzdir.

İsveçrə real, ədalətli, əsaslı faktlara göz yumaraq, Azərbaycana qarşı iftira kampaniyasının meydançasına çevrilməməlidir. İsveçrədə Azərbaycana qarşı qarayaxma kampaniyasına, ölkəmizin daxili işlərinə yersiz müdaxiləyə son qoyulmalıdır".

*XQ*

# Baş prokurorun müavini Monqolustanda



**Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti 4-5 iyun tarixlərində Monqolustanın Ulan-Bator şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının 10-cu Regional Konfransında iştirak edib.**

Heydər Məmmədov konfransda təqdimatla çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə dinamik inkişaf yolunda irəlilədiyini, tərəqqi yönümlü islahatların informasiya-kommunikasiya texnologiyaları, süni intellekt və rəqəmsal media sferalarını da əhatə etdiyini vurğulayıb.

Daha sonra Heydər Məmmədov medianın və sosial şəbəkələrin cinayətlərin aşkar olunması, onların qarşısının alınmasında effektiv istifadə edilməsi, Azərbaycanda sosial media sahəsində normativ hüquqi bazanın gücləndirilməsi və bu kontekstdə beynəlxalq tələblərə cavab verən standartların tətbiqi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

*XQ*

# Azərbaycan–Çin İqtisadi konfransı





**İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Çin Beynəlxalq Ticarətin Təşviqi Şurasının (CCPIT) Quandonq Komitəsinin birgə təşkilatçılığı ilə Bakıda Azərbaycan-Çin (Quandonq) İqtisadi və ticarət əməkdaşlığı konfransı keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, sənaye, enerji, maliyyə, tikinti, ticarət və digər sahələrdə fəaliyyət göstərən 60-dan çox şirkət təmsil olunub.**

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev qarşılıqlı dostluq və etimad prinsiplərinə əsaslanan Azərbaycan-Çin münasibətlərinin genişləndiyini vurğulayıb. Qeyd olunub ki, bu ilin aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanması münasibətlərimizi yeni mərhələyə yüksəldib. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri güclənir. 2025-ci ilin yanvar-aprel aylarında Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşı olan Çinlə ticarət dövriyyəsi 37 faiz artaraq 1,4 milyard ABŞ dollarını ötüb.

Çin Xalq Siyasi Məşvərət Konfransının Quandonq Əyaləti Komitəsinin sədri Lin Kıçinq Azərbaycanla iqtisadi əməkdaşlığın dinamik inkişaf etdiyini və ölkəmizin Çinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşına çevrildiyini qeyd edib.

Konfransda AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev, CCPIT-in Quandonq Əyalət Şöbəsinin I dərəcəli büro səviyyəli rəsmisi Bay Minqşao, Çinin Azərbaycandakı səfiri Lu Mey və başqaları çıxış ediblər.

Tədbirdə AZPROMO və CCPIT-in Quandonq Komitəsi arasında çoxtərəfli əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.

Konfrans B2B görüşlərlə davam edib.

# Şamaxıda zəlzələ

**Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, iyunun 5-də yerli vaxtla saat 16:02-də Şamaxı rayonu ərazisində 7 kilometr dərinlikdə 3,7 maqnitudalı və 16:04-də 4 kilometr dərinlikdə 3,1 maqnitudalı zəlzələlər qeydə alınıb.**

FHN-in mətbuat xidmətindən verilən məlumata görə, zəlzələ nəticəsində hər hansı dağıntı və ya insan xəsarəti barədə bu vaxtadək nazirliyə məlumat daxil olmayıb.

*XQ*

# Qarabağda "parad" üçün silahlar Ermənistandan gətirilirdi

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 5-də davam etdirilib.**







Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmədə Ermənistan Respublikası tərəfindən həyata keçirilmiş təcavüzkar müharibənin gedişində Azərbaycan Respublikasının ekologiyasına və iqtisadiyyatına qəsdən ziyan vurulması faktları üzrə sənədlər tədqiq edilib. Bildirilib ki, Azərbaycan Respublikasının işğal altında olan əraziləri işğaldan azad edildikdən sonra həmin ərazilərə baxışlar keçirilib, hər bir rayon və kənd üzrə vurulmuş ziyan müəyyən olunub.

Bildirilib ki, 1992–2023-cü illər ərzində təqsirləndirilən şəxslər – Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç və digərlərinin rəhbərliyi və iştirakı ilə işğal olunmuş ərazilərdə Azərbaycan xalqına və dövlətinə məxsus yeraltı və yerüstü təbii sərvətlər talan edilib.

Dövlət ittihamçısı Fuad Musayevin iştirakı ilə tədqiq edilən sənədlərə əsasən, talan nəticəsində əldə edilmiş gəlir və ya digər maddi sərvətlər Ermənistan ordusu, cinayətkar birlik tərəfindən formalaşdırılmış silahlı dəstələrin, xarici ölkələrdən gətirilən muzdluların maliyyələşdirilməsinə, onların müxtəlif növ silah, geyim, ərzaq və digər zəruri ehtiyaclarının təmin olunmasına, cinayətkar birliklərə daxil olan silahlı birləşmələrin döyüş qabiliyyətinin artırılmasına yönəldilib. Daha sonra qeyd edilən filiz, xammal və digər təbii ehtiyatların cinayətkar birliyin üzvləri tərəfindən təşkil edilmiş və idarə olunmuş şirkətlər və müəssisələr vasitəsilə istismarı ilə bağlı mövcud məlumatlar təqdim olunub.

Daha sonra məhkəmədə Azərbaycanın vaxtilə işğalda olan ərazilərində - Xankəndi şəhərində 2012-ci ilin may ayında keçirilmiş "hərbi parad"ın ermənilər tərəfindən çəkilmiş videokadrları nümayiş etdirilib. Levon Mnatsakanyan tribunaya dəvət edilib və ona Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov suallar ünvanlayıb.

Ermənistan silahı qüvvələrində yüksək vəzifələr tutmuş, o cümlədən baş qərargah rəisinin müavini olmuş, habelə qondarma rejimdə "müdafiə naziri" olmuş Levon Mnatsakanyan dindirmə zamanı əvvəlcə "parad"la bağlı sualları cavablandırıb. O deyib: "Biz "parad"ları keçirərkən keçmiş SSRİ-nin təcrübəsinə əsaslanmışıq. Adətən, "parad"ların keçirilməsi üçün əsas illik hazırlıq planı təşkil edilirdi. Həmçinin yubileylər - 5, 10, 15, 20, 25 illik - bu "parad"ların keçirilməsi üçün əsas olub. Əgər "parad"larla bağlı əlaqəmi soruşursunuzsa, mən 2012-ci ildə "müdafiə ordusu"nun qərargah rəisi olmuşam. Həmin "parad"ın hazırlanmasına cavabdeh şəxs olmuşam. "Parad" zamanı şəxsi heyəti "ordu komandanı"na təqdim etmişəm, o isə, öz növbəsində, "ölkə rəhbəri"nə raport verib.

Bundan başqa, Ermənistan Respublikasındakı iki, yaxud üç paradda da iştirak etmişəm".

O, "parad"ın qondarma rejimin "ordusu"nun 20 illiyinə həsr edildiyini bildirib və prokurorun sualına cavabında deyib ki, onlar həmin vaxt "Yeraton" – üç bayram ifadəsindən istifadə edirmiş və bu "parad" da "Yeraton" münasibətilə təşkil edilib. Bu bayramlara həm 8 may – Şuşanın işğalı, həm 9 may - İkinci Dünya müharibəsində qələbə günü, həm də rejimin "ordu"sunun yaranma günü aiddir.

Videokadrların davamında "parad"ın komandirinin qondarma rejimin "ordu komandanının birinci müavini, qərargah rəisi", general-mayor Levon Mnatsakanyan olduğu bildirilir. "Parad"ın qəbulunu isə qondarma rejimin "müdafiə naziri" Movsis Akopyan həyata keçirir.

Təqsirləndirilən şəxs "parad"da iştirak edən digər şəxslərin də adlarını sadalayıb: "Sağdan sola deyəcəyəm: "parlamentin sədri" Aşot Qulyan, din xadimi Servazan, həmin vaxt Ermənistan Respublikasının müdafiə naziri olan Seyran Ohanyan, "prezident" Bako Sahakyan, Ermənistan Respublikasının sabiq prezidenti Serj Sarkisyan (həmin vaxt Ermənistan prezidenti olub – red.), erməni kilsəsinin rəhbəri - katolikos, həmçinin Ermənistanın 2-ci prezidenti Robert Koçaryan, Arkadi Qukasyan və həmin vaxt "baş nazir" olan Arayik Harutyunyan".

Levon Mnatsakanyan "parad"da artilleriya silahlarının bütün növlərinin olduğunu deyib və əlavə edib: "D-30, D-20, tank əleyhinə vasitələr, BM-21 qrad, artilleriyanın özüyeriyən qurğuları... Raket kompleksləri var idi, səhv etmirəmsə "Smerç", "Toçka" olub. Zirehli texnikalardan tanklar, piyadaların döyüş maşınları olub".

O, "parad"da istifadə olunan silahların bir qisminin Ermənistandan gətirildiyini də deyib və bildirib: "Bu "parad"da elə silahlar var ki, onlar "müdafiə ordusu"nun arsenalında yoxdur. Lakin hərbi "parad"ın keçirilməsi üçün gətirilib. Məncə, həmin "parad"da "BM 80", "Toçka", "Smerç" olubsa, Ermənistan gətirilənlərdir".

Levon Mnatsakanyan rejimin "ordusu"nun Ermənistan silahlı qüvvələrinin bir hissəsi hesab olunduğunu, "komandan" vəzifəsinə təyinatın Ermənistan müdafiə nazirinin təqdimatı əsasında Ermənistan prezidenti tərəfindən həyata keçirildiyini bildirib və deyib: "Sonralar isə bu təyinatı Ermənistanın baş naziri həyata keçirirdi".

Təqsirləndirilən şəxs rejimin "ordusu"nun ehtiyacı olan silahların siyahısının tərtib olunduğunu, bunun əsasında Ermənistandan silah aldıqlarını, əvəzində heç bir ödəniş edilmədiyini deyib.

Məhkəmə prosesi iyunun 12-də davam etdiriləcək.

*XQ*

**Azərbaycan və Gürcüstan arasında tarixi köklərə əsaslanan dostluq, mədəni və siyasi əlaqələr var. Bu münasibətlər Heydər Əliyevin hakimiyyəti dövründə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. 1995-ci ildə Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ildə isə Tbilisidə Azərbaycan səfirliyinin açılması iki ölkə arasında diplomatik münasibətlərin möhkəmlənməsində mühüm rol oynayıb. Bu gün isə Gürcüstan Cənubi Qafqazda Azərbaycanın ən yaxın və etibarlı tərəfdaşlarından biri kimi çıxış edir.**



# Səmimi qonşuluqdan strateji tərəfdaşlığa

## Azərbaycan–Gürcüstan parlamentlərarası əməkdaşlığın yeni hədəfləri



Hazırda Azərbaycan və Gürcüstan arasında enerji, nəqliyyat və ticarət sahələrində sıx əməkdaşlıq mövcuddur. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Qars kimi transmilli layihələr əməkdaşlığın bariz nümunələridir. Bu strateji əməkdaşlıq, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və regional sabitlik prinsiplərinə söykənir. Bu günlərdə azərbaycanlı parlamentarilərin Gürcüstana səfəri də iki ölkə arasında dostluğa və strateji əməkdaşlığa xidmət edir.

2025-ci il iyunun 3–4-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə, Elm və təhsil, Gənclər və idman komitələrinin sədrləri Gürcüstanda rəsmi səfərdə olublar. Səfər çərçivəsində keçirilən görüşlərdə xüsusilə gənclər siyasəti, elm və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

Milli Məclisin Azərbaycan–Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Arzu Nağıyev XQ-yə bildirdi ki, səfər Prezident İlham Əliyevin Gürcüstan Prezidenti Mixail Kavelaşvili ilə Bakıda keçirilən görüşündə razılaşdırılan təşəbbüslərin davamıdır. Onun sözlərinə görə, aparılan müzakirələr bir sıra mühüm razılaşmalarla nəticələnmiş və yaxın dövrdə onlar konkret layihələrə çevriləcək. Deputatın sözlərinə görə, səfər zamanı gənclər siyasəti əsas mövzulardan biri olub: "Tərəflər arasında əldə olunmuş razılaşmalara əsasən, birgə gənclər forumları, yay düşərgələri, tələbə mübadilə proqramları, bilik yarışmaları və tematik görüşlərin keçirilməsi planlaşdırılır. Bu tədbirlər Azərbaycan və Gürcüstan gəncləri arasında dostluğun dərinləşməsi, qeyri-formal təhsilin təşviqi və gənclər arasında beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından önəmlidir".

*

Yada salaq ki, iki ölkənin gəncləri arasında əlaqələrin inkişafında yay düşərgələri önəmli rol oynayır. Xüsusilə diqqətəlayiq məqam odur ki, Azərbaycanda təşkil olunan bu düşərgələrdə xaricdə yaşayan, eləcə də Gürcüstanın Borçalı bölgəsində doğulmuş azərbaycanlı gənclər iştirak edirlər. Bu düşərgələr Azərbaycanı yaxından tanımaq, dilimiz və tariximizlə yaxından tanış olmaq baxımından unikal fürsət yaradır. Azərbaycan dili üzrə xüsusi panellər, tarixi təqdimatlar və şəbəkələşməyə xidmət edən müxtəlif interaktiv sessiyalar təşkil olunur.

Eyni proses Gürcüstanda keçirilən düşərgələrdə də tətbiq olunur. Gənclər Gürcüstanın tarixi, mədəniyyəti və görkəmli şəxsiyyətləri ilə tanış olur, qarşılıqlı anlaşma və inteqrasiyaya töhfə verirlər.

A.Nağıyevin sözlərinə görə, səfər çərçivəsində Azərbaycanlı parlamentarilər Gürcüstanın təhsil, elm və gənclər naziri Aleksandre Tsuladze ilə görüşüblər. Görüşdə elm və təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsi məsələləri geniş müzakirə olunub. A.Tsuladze bildirib ki, iki ölkə arasında strateji tərəfdaşlıq bu sahədə də qarşılıqlı faydalı əməkdaşlığa zəmin yaradır. O, Azərbaycanın Elm və təhsil nazirinin yaxın vaxtlarda Gürcüstana səfər edəcəyini, sentyabr ayında isə özünün Bakıda keçiriləcək beynəlxalq təhsil konfransında iştirak edəcəyini qeyd edib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov və Arzu Nağıyev Azərbaycanda həyata keçirilən təhsil islahatları, yeni proqramlar, gənclər siyasəti və elmin inkişafına dair təşəbbüslər haqqında ətraflı məlumat veriblər.

Bəli, bu gün Azərbaycanla Gürcüstan arasında strateji əməkdaşlığın mühüm istiqamətlərindən biri təhsildir. Bu əməkdaşlıq yalnız dövlətlərarası münasibətlərlə məhdudlaşmır, həm də Gürcüstanda yaşayan azərbaycanlı icmanın təhsilinə göstərilən dəstək vasitəsilə özünü göstərir. Azərbaycan dövləti bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Xüsusilə Heydər Əliyev Fondu tərəfindən Gürcüstandakı azərbaycanlıların yaşadığı bölgələrdə məktəblərin əsaslı təmiri, müasir dərsliklərin göndərilməsi, tədris prosesinə texniki dəstəyin göstərilməsi bu siyasətin konkret nəticələridir.

Təhsil sahəsində əməkdaşlıq çərçivəsində məlumat mübadiləsi, qarşılıqlı səfərlər və birgə layihələrin icrası davamlı xarakter daşıyır. Gürcüstan hökuməti də öz növbəsində ölkənin müxtəlif bölgələrində yaşayan, o cümlədən yerli bələdiyyələrdə çalışan soydaşlarımız üçün gürcü dili üzrə təkmilləşdirmə kursları və ixtisasyönümlü dil tədrisi təşkil edir. Bu təşəbbüslər azərbaycanlıların dövlət idarəetmə orqanlarına inteqrasiyasına töhfə verir.

Eyni zamanda, hər iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Gürcüstanın universitetlərində həm yerli azərbaycanlı tələbələr, həm də Azərbaycandan gələn tələbələr təhsil alırlar. Oxşar proses Azərbaycanda da müşahidə olunur. Burada gürcüstanlı tələbələr ali təhsil imkanlarından yararlanırlar. Bu çərçivədə tələbə və müəllim mübadiləsi proqramları həyata keçirilir ki, bu da qarşılıqlı anlaşmanın və akademik potensialın inkişafına xidmət edir.

Sonda onu da qeyd edək ki, iki ölkə təhsil sahəsində mövcud hüquqi bazanın gücləndirilməsi və bir sıra istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi məqsədilə "Azərbaycan Respublikası ilə Gürcüstan arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" imzalayıb.

Beləliklə, Azərbaycan və Gürcüstan arasında münasibətlər dostluq və qonşuluq çərçivəsindən çıxaraq, strateji tərəfdaşlığa çevrilib. Yüksək səviyyəli siyasi dialoq, iqtisadi və enerji sahəsində əməkdaşlıqla yanaşı, parlamentlərarası və humanitar sahədə əlaqələrin gücləndirilməsi gələcək nəsillərin ortaq dəyərlər üzərində formalaşmasına zəmin yaradır. Gənclərin, tələbələrin və mütəxəssislərin birgə layihələrdə iştirakı isə iki ölkə arasında qarşılıqlı etimadı daha da möhkəmləndirərək, regionda sülhün, sabitliyin qorunmasına xidmət edəcəkdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik

**IV MƏQALƏ**

## Cəmiyyət identikliyində yeni mənəvi impuls



II Qarabağ müharibəsində qələbə Azərbaycan cəmiyyətinin özünüidentifikasiya prosesinə yeni mənəvi impuls verdi. Bu hadisəni tarixi adlandırmaq olar. Onu iki aspektdə izah etmək mümkündür:

Birincisi, cəmiyyətin birliyinin inkişafında milli ideyanın substantiv və funksional statusunun yeniləşməsi;

İkincisi, müstəqil Azərbaycan Respublikasının dövlət başçısının xalqın və geniş miqyasda Türk dünyasının lideri kimi obrazının yenilənməsi.

Fikrimizcə, hər iki məqam həm nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir. Detalları izah etməyə çalışaq.

## Milli ideya sosial birliyin təşkiledici mexanizmi kimi

2020-ci il milli ideyanın 1993-cü ildən başlayaraq reallaşması prosesinin "final ili" oldu. Avrasiya məkanında II Dünya müharibəsindən sonra ilk dəfə idi ki, bir müstəqil dövlət öz ərazi bütövlüyünü təkbaşına və cəmi 44 günə bərpa edə bilmişdi. Bu, sadəcə, hərbi uğur deyildi. Dünya üçün maraqlı tərəfi ondan ibarət idi ki, Vətən



müharibəsindəki Zəfər həm tarixi, həm siyasi, həm geosiyasi, hüquqi və mənəvi-əxlaqi baxımdan uğur idi. Azərbaycan cəmiyyəti özünə qarşı illərlə tətbiq edilən haqsız, ədalətsiz, bəzən vəhşicəsinə, qeyri-hüquqi münasibətə son qoymaq fürsəti kimi baxırdı bu müharibəyə. Cəmiyyətdə 44 günün coşqusunun kökündə məhz bu həqiqət dayanırdı.

Azərbaycan xalqı bununla azadlıqsevərliyini bütün dünyaya sübut etdi. Təkcə ölkə daxilində deyil, dünyanın hər yerində yaşayan azərbaycanlılar ruh yüksəlişi, azadlıq həsrəti, mübarizə iradəsi ilə "büründü". Azərbaycan, bir toplum olaraq, dünya səhnəsinə "mən varam!" hayqırtısı ilə çıxdı! "Qurd" mərdliyi, cəsarəti, şücaəti və Şərq siyasi müdrikliyi ilə öz tarixini həm yaradır, həm də yazırdı.

Fəlsəfi və elmi düşüncə üçün burada maraqlı məqamlar çoxdur. Onların sırasında Zəfər coşqusunun milli ideyanın yaradıcı gücü əsasında forma alması xüsusi yer tutur. Bu, Azərbaycan cəmiyyətinin dövlətçilik və azərbaycançılıq baxımından irəliyə doğru atdığı əhəmiyyətli addımın ifadəsidir.

Postsovet məkanında hələ başqa bir ölkə milli ideyanı bu cür uğurla sosial birliyə proyeksiya edə bilməyib.

Vətən müharibəsindən sonra milli ideyanın substansiv və funksional mənalarının yeniləşməsi prosesi başlandı və bu proses indi də uğurla davam edir. Onun ideya və praktiki memarı Prezident İlham Əliyevdir. Burada müstəqil dövlətçilik və azadlıqsevərlik kontekstində vacib bir özəllik vurğulanmalıdır.

## Dövlətçilik tarixinin dövrüləşdirilməsi

Prezident İlham Əliyev 2020-ci ildə müasir Azərbaycanın siyasi dövlətçilik tarixinin dövrüləşdirilməsinin siyasi-nəzəri modelini təqdim etdi. Dövlət başçısı Azərbaycan cəmiyyəti və dövləti üçün yeni tarixi mərhələnin başladığını bəyan etdi. Prezident "yeni tarixi mərhələ" anlayışının bütün siyasi-nəzəri, geosiyasi və digər anlamlarını müxtəlif çıxışlarında geniş izah edib. Bu çıxışların sistemli təhlili göstərir ki, İlham Əliyevin məqsədi dəqiq müəyyən edilmiş konsepsiyaya malikdir.

Müasir siyasi dövlətçilik tarixinin dövrüləşdirilməsinin fəlsəfi və politoloji təhlili arxiv əhəmiyyətli mövzudur və uzunmüddətli tədqiqat tələb edir. Bu, interdisiplinar tədqiqat qrupunun formalaşdırılmasını zəruri edir. Burada isə biz yalnız əsas məqamları qeyd edirik.

## Dövrüləşdirmənin siyasi-ideoloji əsası

Yeni tarixi mərhələ əvvəlki nailiyyətlərin baza siyasi-ideoloji prinsipləri üzərində qurulur. Prezident İlham Əliyev milli ideyanın reallaşması kontekstində bu prinsipləri belə müəyyən edir: tarixi ədalətin bərpası, milli ləyaqətin təmin olunması və beynəlxalq hüququn tam bərpası.

Azərbaycan müstəqil dövlət kimi bu uğurlar əsasında yeni geosiyasi düzən nümunəsi formalaşdırmağa başlamışdır. Prezident İlham Əliyev yeni tarixi mərhələni Azərbaycanın regional lider kimi regionlararası və qlobal mühitdə multivektoral, multilateral, multiregional və multikultural istiqamətlərinin sintezində müstəqil dövlət olaraq təsdiqlənməsi dövrü kimi təqdim edir.

Bu yüksəlişdə siyasi varislik, azərbaycançılıq və multikulturalizmin vəhdəti mərkəzi yer tutur. Beləliklə, yeni tarixi mərhələnin dövrüləşdirilməsində üç əsas siyasi-ideoloji "sütun" formalaşır.

## Dövrüləşdirmənin geosiyasi əsası

Yeni tarixi mərhələnin geosiyasi aspekti mürəkkəb xarakter daşıyır. XXI əsrdə geosiyasi faktorların mürəkkəbliyi və gözlənilməz çağırışların artması bu prosesin çətinliyini artırır. Buna görə də dövrüləşdirmə konsepsiyası "ikiqat kontingentlik" situasiyasını nəzərə almalıdır. Sadə dillə desək, bu, ikiqat qeyri-müəyyənliyin (riskin) mövcud olduğu vəziyyətdir.

Elmi çıxış yolu hələlik tam müəyyən edilməsə də, T.Parsons (ikiqat kontingentlik), N.Luman (ümumsistem nəzəriyyəsi), B.Latur (şəbəkə yanaşması) və sinergetik nəzəriyyələr (xaosdan nizama keçid) əsasında nəzəri-metodoloji baza formalaşır.

Bu prizma ilə 2020-ci ildən başlayan yeni tarixi mərhələ geosiyasi aspektdə maraqlı mənzərə yaradır. Geosiyasi əsasları bir neçə istiqamətə bölmək olar:

## Regional-regionlararası qlobal ahəngdarlıq

Prezident İlham Əliyev yeni tarixi mərhələdə regional miqyasda geosiyasi dinamikanı regionlararası və qlobal proseslərlə ahəngdarlıqda saxlayır və buna nail olur. Bunun üçün beynəlxalq təşkilatlarda fəallıq və təşəbbüskarlıq yeni səviyyəyə yüksəlib.

Azərbaycanın yeni əməkdaşlıq və təhlükəsizlik platformaları irəli sürməsi də bu prosesə xidmət edir: İran və Suriya istiqamətində ikitərəfli əməkdaşlıqlar, İsrail-Türkiyə münasibətləri kontekstində üçtərəfli formatlar, yeni müstəmləkəçiliyə qarşı kollektiv fəaliyyət təşəbbüsləri və s.

Azərbaycan diplomatiyası müxtəlif coğrafi bölgələrdə – Mərkəzi Asiya, Qafqaz, Yaxın Şərq, Afrika, Okeaniya, Avropa – milli və regional maraqlara uyğun balans yaratmağa çalışır.

## Regional sülhyaratmadan regionlararası əməkdaşlığa

XXI əsrdə qalıcı və nəticəverici sülh mühiti yaratmaq liderlər üçün vacib vəzifə sayılır. Keçici atəşkəs və müvəqqəti sülh yeni münaqişələrə zəmin yaradır. Buna görə də Prezident İlham Əliyev sülhyaratma fəlsəfəsini regionlararası əməkdaşlıqla birləşdirir.

Məsələn, Çinə səfərində Zəngəzur dəhlizi məsələsini "Orta Dəhliz" layihəsi çərçivəsində təqdim etməsi; Suriyada yenidənqurma işlərinə konseptual və praktiki töhfə verməsi; Azərbaycan yeganə dövlətdir ki, Suriyanın bərpasında konkret addımlar atır.

Azərbaycan Prezidentinin bu istiqamətdəki fəaliyyəti sadalanan nümunələrlə məhdudlaşmır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan – İran əməkdaşlığında dönüş mərhələsi

## Çoxtərəfli əlaqələr ortaq maraqlara əsaslanır

**İyunun 4-də Azərbaycan və İran prezidentləri İlham Əliyev ilə Məsud Pezeşkian arasında telefon danışığında münasibətlərdə ciddi dönüşün yarandığı məmnunluqla qeyd edilib. Teledialoq zamanı bir sıra məsələlərlə yanaşı, hər iki respublikanın aidiyyəti qurumlarının İranın dövlət başçısı Məsud Pezeşkianın ölkəmizə rəsmi səfəri zamanı qarşıya qoyulan tapşırıqların həyata keçirilməsi üçün səylərini davam etdirdikləri vurğulanıb.**

Səfərin nəticəsi olaraq Bakı – Təbriz aviareysinin bərpası və Bakı – Tehran istiqamətində təyyarə reyslərinin sayının artırılması qeyd edilib, bunun xalqlarımız arasında təmasların artmasına müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub. Qeyd edək ki, İran Azərbaycan üçün dost və tərəfdaş ölkə olmaqla yanaşı, xalqlarımız arasında da qədim tarixə malik əlaqələr mövcuddur. Şübhəsiz ki, bu amil iki ölkə arasında münasibətlərin dərinləşməsini, əlaqələrin möhkəmlənməsini və dinamik inkişafını şərtləndirir. Bu il aprelin 28-də Prezident Məsud Pəzeşkiyanın respublikamıza rəsmi səfərinin uğurla gerçəkləşdirilməsi də bunun bariz ifadəsidir.

Azərbaycan və İranın dövlət başçılarının görüşlərində, eyni zamanda, Araz dəhlizi layihəsinin böyük diqqət çəkdiyi xatırladılmaqla bərabər, bu təşəbbüslə bağlı həm bölgədə, həm də dünyada müxtəlif fərziyyələr, şayiələr gəzdiyi qeyd edilib. Prezident İlham Əliyev tərəfindən buna heç bir əsas olmadığı diqqətə çatdırılaraq bunun, sadəcə, yeni bir nəqliyyat, bağlantı layihəsi olduğu və Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihə kimi diqqətdə saxlanıldığı bildirilib.

İran İslam Respublikası ölkəmizin vacib ticarət tərəfdaşlarından biridir. 2005-ci ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsinin həcmi 242 milyon 786,4 min ABŞ dolları təşkil etdiyi halda, ötən il bu göstərici 647,1 milyon dollara çatıb. Bu isə



2023-cü ilə nisbətən 159,7 milyon dolları və ya 32,8 faiz çoxdur. Ümumilikdə, 2024-cü ildə İran İslam Respublikası ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1,3 faizi həcmində olub.

Hesabat ilində Azərbaycan İrana 14 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. Ötən il ölkəmiz İrandan məhsul idxalını illik müqayisədə 160 milyon ABŞ dolları və ya 33,8 faiz artıraraq 633 milyon dollara çatdırıb. Cənub qonşmuzdan alınan məhsullar ölkəmizin ümumi idxalının 3,01 faizini təşkil edib.

Bu tendensiya 2025-ci ilin ilk aylarından da davam edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında Azərbaycanla İran İslam Respublikası arasında ticarət əməliyyatlarının həcmi 157,2 milyon dolları təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə müqayisədə 22,3 milyon dollar və ya 16,5 faiz çoxdur. Məlumata əsasən, hesabat dövründə İran İslam Respublikası ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1,30 faiz həcmində olub.

İki ölkə arasında əməkdaşlığın mühüm istiqamətlərindən birini də nəqliyyat əlaqələri təşkil edir. Nəqliyyat – logistika sahəsində əməkdaşlığın əsas istiqamətlərindən biri Şimal – Cənub Nəqliyyat Dəhlizinin inkişafıdır. 2023-cü ildə bu marşrut üzrə yükdaşımaların 50 faiz artması və Ağbənd dəmir yolu körpüsünün tikintisi iki ölkənin logistika imkanlarının genişlənməsinə xidmət edir. Şimal – Cənub Nəqliyyat Dəhlizi həm Avropa ilə Asiya arasında ən qısa və səmərəli tranzit yolu kimi çıxış edir, həm də iqtisadiyyatın şaxələndirilməsinə, eləcə də beynəlxalq ticarətin genişlənməsinə şərait yaradır.

Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Hindistan və Cənub – Şərqi Asiya ölkələrindən gələn yüklərin İranın Bəndər – Abbas limanından Azərbaycan üzərindən daşınmasını gerçəkləşdirəcək. İldə 15 milyon ton yük daşınması planlaşdırılan bu tranzitdən Azərbaycan çox böyük gəlir (ildə, təxminən, 250-300 milyon dollar) əldə edəcək.

Bu dəhlizlə Cənub – Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcək. Yüklərin Süveyş kanalı vasitəsilə daşınmasından 800 kilometr daha az məsafə qət ediləcək. Eyni zamanda, daşıma müddəti 20 gün azalacaq və yüklər daha etibarlı yolla mənzilbaşına çatdırılacaq.

Avtomobil daşımaları sahəsində də iki ölkə arasında əməkdaşlıq inkişaf edir. "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Saziş çərçivəsində Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında İran ərazisindən keçən yükdaşımaları həyata keçirilir.

Hazırda bu məqsədlə Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvanda İran üzərindən bağlantı yaradılacaq körpülərin layihələndirilməsi artıq başa çatdırılıb. Gündəlik 1100 avtomobil, 30 avtobus və 15 min sərnişinin bu marşrutdan istifadə edəcəyi gözlənilir.

Azərbaycan və İran arasında hava nəqliyyatı da uğurla fəaliyyət göstərir. "Azərbaycan Hava Yolları" və "İran Air" Bakı və Tehran arasında müntəzəm uçuşlar həyata keçirir. Dəniz nəqliyyatı sahəsində isə Dövlət Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri vasitəsilə Azərbaycandan və Türkmənistandan İrana yüklər daşınır.

# Balanslı enerji strategiyası: təhlükəsizlik və "yaşıl" keçid

**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Azərbaycanda təbii qazın hasilat həcmi artırılır. Çünki buna ehtiyacı olan ölkələr var və onların tələbatı ödənilir.



Eyni zamanda, Azərbaycan tərəfindən tərəfdaşları ilə birlikdə "yaşıl" enerji layihələrinə yatırım da edilir. 2030-cu ilə qədər istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcək. Yəni bu gün buraya sərmayə qoymuş investorlar hasilatın həcmini artıracaq. Həmçinin imzalanmış yeni sazişlər və nəzərdə tutulan müqavilələr həmin potensialı gerçəkləşdirəcək.

Prezident İlham Əliyev daha sonra deyib: "Ötən il Bakı Enerji Həftəsi çərçivəsində toplam 1000 meqavat "yaşıl" enerji həcmində müqavilələr imzalandı. Bu tədbir çərçivəsində də bir neçə yüz meqavat həcmində yeni sazişlər imzalanacaqdır. Yəni, biz bu yol ilə irəliləyirik". Dövlətimizin başçısı daha sonra söyləyib ki, COP29 haqqında danışarkən onun, həqiqətən də, uğurlu olduğunu qeyd etməliyik. Qlobal konfransın "Bakı sıçrayışı" adlandırılması bir çox hədəflərə nail olmağımızla bağlıdır: "Onların hər birini sadalamaq istəmirəm. Ancaq burada mühüm nailiyyət kimi, İtki və Zərər Fondunu və inkişafda olan ölkələr üçün nəzərdə tutulmuş yardımın 100 milyard dollardan 300 milyard dollara qədər artırılmasını qeyd etmək istəyirəm. Bununla yanaşı, 10 il davam edən müzakirələrdən sonra karbon bazarı da işlək vəziyyətə gətirildi".

Ölkəmizin rəhbəri onu da qeyd edib ki, enerji bazarında məsuliyyətli aktor hər zaman real hədəfləri qarşısına qoyan və müxtəlif oyunçuları bir araya gətirə bilən ev sahibi olan Azərbaycanın mirası məhz bundan ibarətdir. Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi çərçivəsində çıxış edən dövətimizin başçısı bir daha Azərbaycanın enerji sahəsində oynadığı strateji rolu və gələcəyə yönəlmiş siyasətini aydın şəkildə ortaya qoydu. Ölkə rəhbərinin nitqində səsləndirilən fikirlər həm neft-qaz sektorunun mövcud vəziyyəti, həm də "yaşıl" enerji keçidinə dair respublikamızın balanslı yanaşmasını əks etdirir.

Prezident İlham Əliyevin çıxışında xüsusi olaraq vurğuladığı məqamlardan biri bəzi ölkələrin enerji siyasətində "yaşıl" enerji ilə qazıntı yanacaqları arasında tarazlığı qoruya bilməməsidir. Bu balanssızlıq bəzən genişmiqyaslı enerji böhranlarına, hətta enerji sistemlərinin çökməsinə səbəb olur. Azərbaycanın isə bu məsələyə yanaşması tamamilə rasional və davamlı inkişaf prinsiplərinə əsaslanır.

Hazırda dünya enerji bazarında baş verən dəyişikliklər və iqlim dəyişiklikləri ilə mübarizə çağırışları qarşısında düzgün enerji balansı daha da ön plana çıxır. Azərbaycanın qaz hasilatını artırmaqla bərabər, paralel şəkildə bərpa olunan enerji mənbələrinə də sərmayə yatırması bu baxımdan təqdirəlayiqdir.

Burada təbii qaz hasilatının artırılması məsələsinə gəldikdə isə deyə bilərik ki, buna əsas səbəb bu növ yanacağa ehtiyac duyan ölkələrin mövcudluğudur. Azərbaycanın xarici tərəfdaşları ilə birlikdə bu tələbatı ödəmək üçün gördüyü tədbirlər onun etibarlı enerji təchizatçısı kimi reputasiyasını daha da möhkəmləndirir.

2030-cu ilə qədər əlavə 8 milyard kubmetr qazın hasil ediləcəyi proqnozlaşdırılır. Bu qaz 5 mövcud yataqla yanaşı, yeni kəşf ediləcək sahələrdən də əldə olunacaq. Artan sərmayə axını və yeni sazişlərin imzalanması bu hədəflərin reallığa çevriləcəyini göstərir. Beləliklə, Azərbaycan yalnız cari ehtiyaclara cavab verməklə kifayətlənmir, həm də enerji sektorunun davamlı inkişafını gerçəkləşdirir.

"Yaşıl" enerji sahəsində atılan addımlar da Azərbaycanın qlobal enerji gündəmində ön sıralarda yer aldığını göstərir. Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgidə çıxış edərək qeyd etdi ki, təkcə ötən il Bakı Enerji Həftəsi çərçivəsində 1000 meqavat gücündə yaşıl enerji layihələri üzrə müqavilələr imzalanıb. Bu il isə əlavə bir neçə yüz meqavat həcmində yeni sazişlər imzalanacaq.

Bu göstəricilər Azərbaycanın "yaşıl" enerji istehsalçısı kimi potensialını nümayiş etdirir. Xüsusilə külək və günəş enerjisi sahəsində beynəlxalq şirkətlərlə əməkdaşlıq ölkəmizin enerji portfelini daha da diversifikasiya edir. Bu yanaşma enerji təhlükəsizliyi və ekoloji məsuliyyətin paralel şəkildə inkişaf etdirilməsi baxımından strateji önəm daşıyır.

Prezidentin çıxışında vurğuladığı digər mühüm məqam isə COP29 konfransının uğurlu təşkili və nəticələridir. Azərbaycanın ev sahibliyi edəcəyi bu mühüm tədbir artıq "Bakı sıçrayışı" kimi dəyərləndirilir. Bu ifadə sadəcə bir metafora deyil, əksinə, iqlim gündəmində konkret nailiyyətlərin simvoluna çevrilmişdir.

Sonda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın enerji siyasəti təkcə daxili ehtiyacları deyil, beynəlxalq əməkdaşlıq, iqlim dəyişikliklərinə uyğunlaşma və yeni texnologiyaların tətbiqi kimi mühüm məsələləri də əhatə edir. Məhz bu səbəbdəndir ki, ölkəmiz enerji bazarında "məsuliyyətli aktor" kimi qəbul edilir. Azərbaycanın ev sahibliyi etdiyi tədbirlər, imzaladığı sazişlər və irəli sürdüyü təşəbbüslər müxtəlif tərəfləri bir araya gətirmək və real nəticələr əldə etmək baxımından nümunəvi xarakter daşıyır.

## AHİK elektron rezervasiya sisteminə keçir




**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) e-AHİK elektron rezervasiya sistemi istifadəyə verilib. Bu münasibətlə keçirilən mərasimdə sanatoriya və istirahət ocaqlarına yollayışların verilməsində e-AHİK elektron rezervasiya sisteminin üstünlükləri haqqında məlumat verilib.**

Bildirilib ki, sistem yollayışların verilməsi prosesində əlçatanlığın, şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə yaradılıb. Yeni elektron sistem vasitəsi ilə sanatoriya-kurort və istirahət mərkəzlərinə yollayışı daha asan və rahat şəkildə əldə etmək mümkün olacaq. Qeyd olunub ki, e-AHİK sistemi üzərindən müraciət qəbul olduqda təsdiq barədə müraciət edən şəxsə məlumat verilir. Sonra şəxsi kabinetdə ödəniş linki ilə yollayışın qismən dəyəri ödənilir və elektron yollayış müraciət edən şəxsin elektron poçt ünvanına göndərilir. Yollayışı əldə edən şəxs elektron yollayış və şəxsiyyət vəsiqəsi ilə göstərilən tarixdə sanatoriya və ya istirahət mərkəzinə yaxınlaşır. Mərasimdə sistemdən istifadə qaydaları haqqında media nümayəndələrinə geniş təqdimat edilib.

Tədbirdə ittifaq üzvlərinin əmək hüquqlarının müdafiəsi, sağlamlığının qorunması, istirahətinin təşkili istiqamətində görülən işlərdən, aparılan islahatlardan və tətbiq edilən yeniliklərdən bəhs edən video nümayiş etdirilib. Konfederasiyanın həyata keçirdiyi "AHİK könüllüləri", "Layiqli əmək səfirləri", "Sağlamlığa doğru qaç!", "Həmkardan həmkara qayğı ilə" layihələri barədə də ətraflı məlumat verilib, həmin layihələrdən hazırlanmış videoçarx izlənilib.

Diqqətə çatdırılıb ki, konfederasiya tərəfindən ittifaq üzvləri üçün əlavə xüsusi endirimlər və bonuslar təqdim edən "AHİK plus" proqramının da yaxın vaxtlarda icrasına başlanılacaq. Proqram üzvlərin sosial rifahının yüksəldilməsini, mal və xidmətlərə daha sərfəli çıxış imkanlarının yaradılmasını hədəfləyir.

Tədbirdən sonra media nümayəndələri "Kurort" Turizm İnformasiya Mərkəzi ilə tanış olublar. Məlumat verilib ki, e-AHİK sistemi üzərindən edilən müraciətlər burada emal olunur. Media nümayəndələri, həmçinin konfederasiya tərəfindən yeni yaradılan Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzində də olublar. Bildirilib ki, mərkəzdə ittifaq üzvlərinə əməyin hüquq və texniki müfəttişləri tərəfindən əmək münasibətlərində hüquqi məsələlərlə bağlı ödənişsiz hüquqi yardım göstərilir. Məqsəd həmkarlar ittifaqı üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin daha etibarlı təşkili ilə məmnunluq səviyyəsinin yüksəldilməsidir.

## Qarabağ və Şərqi Zəngəzurda kredit qoyuluşu yüksəlib

**Mərkəzi Bankın məlumatına əsasən, bu il mayın 1-nə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə kredit qoyuluşlarının həcmi əvvəlki ayla müqayisədə 486 min manat və ya 4,7 faiz artaraq 10,8 milyon manata bərabər olub.**

Məlumata əsasən, bu göstərici üzrə orta faiz dərəcəsi 16,94 faiz təşkil edib. Sözügedən dövr ərzində regiona qoyulmuş kreditlərin 10,1 milyon manatı milli valyutada, 698 min manatı isə sərbəst dönərli valyutada yerləşdirilib. Eyni zamanda, cari ilin mayın 1-nə Qarabağ iqtisadi rayonu üzrə isə kredit qoyuluşlarının həcmi 491,2 milyon manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 10 milyon manat və ya 2 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 61,2 milyon manat və ya 14,2 faiz çoxdur.

Məlumata əsasən, hesabat dövründə sözügedən region üzrə kredit qoyuluşlarının orta faiz dərəcəsi 19,43 faizə bərabər olub. Dövr ərzində regiona qoyulmuş kreditlərin 489,8 milyon manatı milli valyutada, 1,4 milyon manatı isə sərbəst dönərli valyutada yerləşdirilib.

Qeyd edək ki, 2025-ci ilin mayın 1-nə ölkənin regionları üzrə kredit qoyuluşlarının həcmi əvvəlki ayla müqayisədə 219,4 milyon manat və ya 0,8 faiz, 2024-cü ilin eyni dövrü ilə müqayisədə isə 3,5 milyard manat və ya 14 faiz artaraq 28,096 milyard manata bərabər olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 172** **Bakı şəhəri, 3 iyun 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikasının Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I); 2024, № 3, maddə 296; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 140 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na aşağıdakı məzmunda 3.7-ci bənd əlavə edilsin:

"3.7. Dərman vasitələrinin idxalını həyata keçirən hüquqi şəxs ölkə daxilində dərman vasitəsinin aptek təşkilatlarına topdansatışını digər topdansatış əczaçılıq müəssisəsi vasitəsilə həyata keçirdiyi təqdirdə, bu Qaydanın 3.4-cü bəndi ilə müəyyən olunan "Topdansatış əczaçılıq müəssisəsi üçün əlavə"nin 40 faizindək hissəsini dərman vasitəsinin aptek təşkilatına birbaşa topdansatışını həyata keçirən həmin topdansatış əczaçılıq müəssisəsinə ödəyir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 173** **Bakı şəhəri, 3 iyun 2025-ci il**

**"Bələdiyyələrlə iş" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 238 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Bələdiyyələrlə iş" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi "Bələdiyyələrlə iş" informasiya sisteminin fəaliyyətinin təşkili, saxlanılması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə "Bələdiyyələrlə iş" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 174** **Bakı şəhəri, 4 iyun 2025-ci il**

**İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 iyun iş günü ilə 21 iyun istirahət gününün yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 175** **Bakı şəhəri, 4 iyun 2025-ci il**

**"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1224 (Cild I); 2024, № 2, maddə 237, № 3, maddə 301, № 7, maddə 925, № 10, maddə 1161) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"nın 4.1.5-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.1.5. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 dekabr tarixli 434 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1538 (Cild I); 2024, № 7, maddə 925) ilə təsdiq edilmiş "Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2.3-cü yarımbənddən "bağlanılmış əmək müqaviləsinə dair" sözləri çıxarılsın və həmin yarımbənddə "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış" sözləri "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

2.2. 3.2.6-cı yarımbənddə "əmək" sözündən əvvəl "ƏMAS-dan işçinin əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 733 (Cild I); 2024, № 7, maddə 885) ilə təsdiq edilmiş "Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası"nın 5.3.5-ci yarımbəndinin 1-ci hissəsinə "əmək kitabçasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 fevral tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 223) ilə təsdiq edilmiş "Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri"nin 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci cümlədə "stajını müəyyən edən sənəd müvafiq olaraq əmək kitabçası və ya hərbi biletdir" sözləri "stajı müvafiq olaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə əmək kitabçası və ya hərbi bilet əsasında müəyyən edilir" sözləri ilə əvəz edilsin;

4.2. ikinci cümlədə "Əmək kitabçası və ya hərbi bilet" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 176** **Bakı şəhəri, 4 iyun 2025-ci il**

**"Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkında istehsal olunan məhsullar üçün dövlət sifarişlərinin verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 214 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının adının dəyişdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 26 noyabr tarixli 374 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkında istehsal olunan məhsullar üçün dövlət sifarişlərinin verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 214 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 949 (Cild I); 2024, № 3, maddə 316) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissədə Milli Elmlər Akademiyasının" sözləri "Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**2.** 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

**3.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkında istehsal olunan məhsullar üçün dövlət sifarişlərinin verilməsi Qaydası" üzrə:

3.1. adında və 1.2-ci bənddə "Milli Elmlər Akademiyasının" sözləri "Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.2. 1.3-cü bənddə "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli Sərəncamının 5-ci hissəsi ilə Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində yaradılmış "AMEA Yüksək Texnologiyalar Parkı" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "ETN Yüksək Texnologiyalar Parkı" sözləri ilə əvəz edilsin;

3.3. 1.7-ci, 2.12-ci bəndin birinci və ikinci cümlələrində və 2.13-cü (birinci halda) bəndlərdə ismin müvafiq hallarında "Milli Elmlər Akademiyası" sözləri ismin müvafiq hallarında "Respublikası Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. Həmin Qaydaya əlavə - "YT Parkda istehsal olunan məhsullara tələbat barədə məlumat"ın yuxarı sağ küncündə "Milli Elmlər Akademiyasının" sözləri "Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 177** **Bakı şəhəri, 4 iyun 2025-ci il**

**"Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 may tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1111 (Cild I); 2024, № 4, maddə 441) ləğv edilsin.

**2.** "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 iyun tarixli 266 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1365 (Cild I); 2024, № 4, maddə 441) ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 179-cu və 218-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 178** **Bakı şəhəri, 4 iyun 2025-ci il**

**"Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 fevral tarixli 47 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 164-VIIQD nömrəli Qanununun tətbiqi və "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 384 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 fevral tarixli 47 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 345 (Cild I); 2024, № 4, maddə 468) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nın 1.3-cü bəndində "1994-cü il 12 iyun tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası diplomatik poçtunun daşınması qaydası haqqında Əsasnamə"yə" sözləri "2025-ci il 26 may tarixli 169 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik korrespondensiyanın daşınması Qaydası"na" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Mərkəzi Dövlət Arxivi – 105

# Mötəbər tarixi həqiqətlər məbədi




**(əvvəli 3 iyun tarixli sayımızda)**

Azərbaycanda arxiv işinin inkişafında xüsusi əməyi olan görkəmli tarixçiarxivçilərimiz A.Qubaydulin, B.Gülnəzərov, R.Ağalarov, A.Subhanverdixanov, R.Şabanov, A.Talışınski, F.Şahtaxtinski və digərləri 1925–1926-cı illərdə Azərbaycanın ictimai-siyasi həyatında baş vermiş hadisələri əks etdirən müxtəlif tarixi mövzularda (Azərbaycanda feodal-kəndli təssərrüfatları, siyasi partiyalar, fəhlə hərəkatı, mülki müəssisələr, maldarlıq-əkinçilik təsərrüfatları və s.) qiymətli elmi məqalələr və nəşrlər hazırladılar. Lakin arxivin nəşriyyat xərcləri olmadığı üçünonlar bu materialları çap etdirə bilmədlər.

Arxiv işi ilə əlaqəli təcrübəsi və metodiki vəsaitləri olmayan Azərbaycan arxivçiləri ilk dövrlərdə qarşılaşdıqları işləri öz bilik və düşüncələrinə uyğun həll edərək sənədlərin qorunması, qeydiyyatı ilə məşğul olmaqla yanaşı, bir sıra zəruri sahələrini əhatə edən (sənədlərin uçotu, elmi-texniki cəhətdən qaydaya salınması, dəyərinin ekspertizası, şəhər və qəza arxivlərində yoxlamaların aparılması və sair) elmi-metodiki vəsaitlər, təlimatlar və əsasnamələr də hazırlamaqla işin təşkilində dönüş yarada bildilər. Əgər 1926-cı ilə qədər arxivlərə inqilabaqədərki dövrə aid sənədlər daxil olurdusa, artıq 1926-cı ildən MDA-ya həm də sovet dövründə yaradılan idarələrin sənədləri qəbul edilirdi. MDA-nın metodiki sənədlərin, təlimat və əsasnamələrin hazırlanması və onların praktiki fəaliyyətdə tətbiqinə başlaması ölkədə arxiv işinin formalaşması və inkişafı prosesini sürətləndirdi.

Mərkəzi Dövlət Arxivi kənar yerli idarə və təşkilatların arxivləri ilə əlaqə saxlayır, sənədlərin saxlanılma şəraiti ilə tanış olurdu. Gəncə, Şuşa, Naxçıvan və digər yerlərdə tarixi əhəmiyyətli sənədlərin qeydiyyatdan kənarda qalması, məhv edilməsi, dağınıq halda saxlanılması faktları ortaya çıxırdı. Mövcud çətinliklərə baxmayaraq, MDA nəinki yerlərdə, həm də Bakı şəhərində yaranmış problemlərin həlli üçün bütün gücü ilə çalışır, təhlükəli şəraitdə saxlanılan Bakı Dairə Məhkəməsinin, Bakı Gömrük İdarəsinin, azərbaycanlı milyonçu H.Z.Tağıyevin fabriklərinin, notarial kontorların, Zaqafqaziya Balıq İdarəsinin və onlarla iri təşkilatın tarixi əhəmiyyətli arxiv sənədlərini məhv olmaq təhlükəsindən xilas edərək onların fondlaşdırılmasına müvəffəq olurdu.



MDA tərəfindən Bakı şəhərində və yerlərdəki arxivlərdə aparılan əsaslı təhqiqatlar Azərbaycanda arxiv işinin planlı şəkildə inkişafına təkan verməklə bərabər, həm də sahənin inkişafına təkan verən yeni qərarların qəbulunu şərtləndirdi. Azərbaycan SSR MDA-nın ayrı-ayrı qəzalarda, iri şəhərlərdə, Naxçıvan MR və keçmiş DQMV-də aparılan təhqiqatların nəticələrinə dair hesabatlarında, məlumatlarda yerlərdə arxivlərin və arxiv orqanlarının yaradılmasının vacibliyi qeyd olunur və bununla bağlı hökumətə təkliflər təqdim edirdi. Yaranmış vəziyyəti nəzərə alan AzSSR Naxçıvan MİK-i 1925-ci il 13 dekabr tarixli qərarı ilə Naxçıvan MR Dövlət Arxivini yaradır.

Arxiv quruculuğunun ilk illərində görülən mühüm işlərdən biri də kənar ölkələrin arxivlərində saxlanılan Azərbaycanla bağlı arxiv sənədlərinin Mərkəzi Dövlət Arxivinə gətirilməsi işinin təşkili olmuşdur. Bu məqsədlə Azərbaycan arxivçiləri RSFSR və Zaqafqaziya respublikalarının arxivçiləri ilə sıx əməkdaşlıq edir və sənədlərin seçilməsi işinin həyata keçirilməsi üçün yaradılan xüsusi komissiyalarda iştirak edirdilər. Gürcüstan və Azərbaycan dövlət arxivləri arasında ölkələrin tarixinə dair sənədlərin mübadiləsi ilə bağlı əldə edilmiş xüsusi razılaşmaya əsasən MDA elmi işçiləri 1923–24-cü illərdə Tiflisdə olmuş və Azərbaycan tarixi ilə bağlı qiymətli arxiv sənədlərinin seçilməsində fəal iştirak etmişdilər.

1925-ci ildə Tiflisdə Zaqafqaziya Mərkəzi Dövlət Arxivlərinin nümayəndələrinin iştirakı ilə keçirilən konfransda həm RSFSR, həm də Zaqafqaziya respublikalarının arxivlərində saxlanılan sənədlərin tərkibindən hər bir ölkənin ona aid olan sənədlərinin götürülməsi məsələsi müzakirə edilmişdi. Həmin il Gürcüstan dövlət arxivlərindən Azərbaycana aid 5 min iş seçilmiş və onlaradan 2 mindən artıq iş (Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diplomatik missiyası, Qafqaz Canişinliyi, Azərbaycan quberniyalarındakı bəy komissiyaları və digər fondlar üzrə) Azərbaycan MİK-nın Mərkəzi Dövlət Arxivinə gətirilmişdi.

Lakin sonradan müxtəlif iqtisadi və siyasi səbəblərdən həmin işlərin davam etdirilməsi mümkün olmur. Azərbaycan tarixinin ilk mənbələr əsasında öyrənilməsində müstəsna əhəmiyyətə malik minlərlə arxiv sənədi qonşu ölkələrin arxivlərində qalır. Ölkələr arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında memorandum imzalanmasına baxmayaraq, arxiv sənədlərinin mübadiləsində yaranan qeyri-müəyyənlik bugünədək qalmaqda davam edir.

Respublikamızın dövlət arxiv fondu sənədlərinin tərkibinin zənginləşdirilməsində Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin "Tarixi-inqilabi maraq kəsb edən fotoşəkil və kinofilm neqativlərinin Azərbaycan SSR Dövlət Arxivinə təhvil verilməsi haqqında" 17 iyul 1926-cı il tarixli qərarın müstəsna əhəmiyyəti olmuşdur. Qərarda tabeçiliyindən asılı olmayaraq bütün idarə və müəssisələrə özlərində olan ictimai-siyasi və tarixi-inqilabi maraq kəsb edən bütün fotoşəkil və kinofilm neqativlərini onların hazırlandıqları vaxtdan 5 il sonra ASSR Dövlət Arxivinə verilməsi və kino və fotoneqativlərin mühafizə olunduğu yer barədə bir ay müddətində AzSSR Dövlət Arxivinə məlumatın verilməsi tapşırılır.

Təhvil veriləcək neqativlərə baxış və onların seçilməsinin Azərbaycan İnqilab Muzeyi nümayəndələrinin bilavasitə iştirakı ilə AzSSR Mərkəzi Dövlət Arxivinin təyin etdiyi ekspert komissiyası tərəfindən həyata keçirilməsinin zəruriliyi qeyd olunur, o cümlədən tamaşasına və nəşrinə icazə verilməyən kinofilm və fotoşəkillərin neqativlərinin məhv edilmədən AzSSR Dövlət Arxivinin mühafizəsinə verilməsi tələb olunur. AzSSR Dövlət Arxivinə müvafiq fotosənəd və kinolentləri təhvil verən idarə və müəssisələrin müəlliflik hüququnun qorunmasının təmin edilməsi, Azərbaycan İnqilab Muzeyi tərəfindən həmin fotoşəkil və kinomaterialların muzeyin sərgilərində nümayiş etdirilməsinə imkan yaradılması, Xalq Ədliyyə və Maarif Komissarlığına müvafiq sahədə işin təşkili qaydalarını müəyyən edən xüsusi Təlimatın hazırlanması tapşırılır.

Ölkəmizin ictimai-siyasi və mədəni-tarixi həyatında baş verən hadisələrin əks olunduğu fotosənəd və kinolent neqativlərinin VDAF-nın tərkibinə daxil edilməsi və onların dövlət arxivində mühafizəsinin təşkili barədə verilmiş qərarın dövlət arxivlərinin yeni növ sənədlərlə zənginləşdirilməsində, vahid dövlət arxiv fondunun əhatə dairəsinin genişləndirilməsində, o cümlədən ölkəmizin sosial-mədəni həyatının ayrı-ayrı sahələrinin vizual görüntülər əsasında tədqiqi və öyrənilməsində müstəsna əhəmiyyəti oldu. Qərara uyğun olaraq MDA müvafiq qurumlarla razılaşdıraraq kinolentlərin və fotosənədlərin neqativlərinin dövlət mühafizəsinə qəbulunu təmin etmək üçün xüsusi təlimat hazırladı və tarixi-inqilabi əhəmiyyət kəsb edən kino-foto sənədlərin Dövlət arxivinə qəbuluna başlanıldı. Dövlət arxivinə təhvil veriləcək neqativlərə baxışı və onların seçilməsi məqsədilə Ekspert Komissiyası yaradıldı.

Ekspert Komissiyasının qərarı ilə 1927-1928-ci illərdə üç mindən artıq tarixi əhəmiyyətli kino-foto neqativi dövlət qeydiyyatına alındı. Mərkəzi İcraiyyə Komitəsi 19 may 1931-ci ildə "Azərbaycan SSR Mərkəzi Dövlət Arxivinə verilməli olan fotoneqativlər barədə" daha bir tarixi qərarla kinolentlər və fotosənədlər yaradan müəssisələrin tarixi əhəmiyyətli kinofotoneqativlərinin dövlət arxivinə təhvil verilməsi qaydasını müəyyən edərək bu sahədəki fəaliyyəti daha da təkmilləşdirdi və bu növ sənədlərin dövlət arxivinə təhvil-qəbulu işini asanlaşdırdı.

Tarixi tədqiqatların aparılmasında inqilaba qədərki və sonrakı illərdə yaranan dövri ədəbiyyatın rolunu yüksək qiymətləndirən Mərkəzi Dövlət Arxivi kinofoto sənədlərlə yanaşı, köhnə dövrü ədəbiyyatın dövlət arxivinə təhvil verilməsi məsələsinə baxılması barədə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinə müraciət edir. Azərbaycan SSR MİK-i Dövlət Arxivinin təkliflərinə baxır və bütün təşkilatlarda saxlanılan inqilaba qədərki dövrü ədəbiyyatın dövlət arxivinə təhvil verilməsi məsələsini müzakirə edərək 30 oktyabr 1926-cı ildə "Köhnə dövri ədəbiyyatın arxivə təhvil verilməsi barədə" xüsusi qərar qəbul edir. Həmin qərara əsasən bütün təşkilatlarda saxlanılan inqilabaqədərki dövrə aid dövri ədəbiyyatın bir ay müddətində dövlət arxivinə təhvil verməsi tələb olunur.

MDA qısa müddətdə qərarın icrasına başlayır və bir neçə ildə (1929-cu il üçün) arxivin məlumat kitabxanasına 15.000 kitab, 700 jurnal, 325 dəst qəzet qəbul edilərək qeydiyyata alınır. Kinofoto materialların, köhnə dövri ədəbiyyatın MDA-nə qəbulu, onun sənəd bazasını genişləndirməklə bərabər, həm də elmi-tədqiqat müəssisələri ilə əlaqələrinin möhkəmlənməsinə, o cümlədən arxiv materiallarından istifadə etməklə hazırlanan elmi-tədqiqat işlərin, sənəd məcmuələrin, publikasiyaların, məqalələrin kəmiyyətində və keyfiyyətində müsbət dəyişikliklərə səbəb olur, arxiv materiallarının çapına yeni imkanlar yaradır.

1927-ci ilin 22-27 fevral tarixlərində Bakıda keçirilən respublika maarif işçilərinin VI qurultayında maarif sahəsindəki məsələlərlə yanaşı, respublikamızda arxiv işinin vəziyyəti müzakirə olunur və qurultayın qətnaməsində MDA-nin əməkdaşlarının tarixi sənədlər əsasında hazırladıqları materialların Xalq Maarif Komissarlığı tərəfindən çap etdirilməsi barədə təklif qəbul edilir. Qısa müddətdən sonra MDA-nın əməkdaşlarının arxiv sənədləri əsasında hazırladıqları və respublikamızın həyatında baş vermiş vacib ictimai-siyasi hadisələri əks etdirən məqalələr, elmi nəşrlər, toplular çapa hazırlanır və 1927-1928-ci illərdə arxiv sənədlərinin orijinalları əsasında hazırlanmış elmi nəşrlər, kitablar ("XIX əsrdə Azərbaycanda feodal sinifləri və kəndlilər", "Azərbaycanda vəqf mülkiyyəti", "1905-ci ildə Bakıdakı milli münaqişələr haqqında" və s.) çap edilir. Arxiv materialları əsasında hazırlanmış nəşrlər respublikamızın elmi ictimaiyyətinin böyük marağına səbəb olmaqla yanaşı, həm də arxiv materiallarının elmi əhəmiyyətinin geniş ictimaiyyətə çatdırılmasında müstəsna rol oynayır.

Mərkəzi Dövlət Arxivi arxiv sənədlərinin dövlət və elm üçün müstəsna əhəmiyyətini nəzərə alaraq onlardan elmi məqsədlər üçün istifadə işinin yaxşılaşdırılması, korlanması və ya məhv edilməsinin qarşısının alınması istiqmətində daim mübarizə aparır, respublika hökumətini bununla əlaqəli məlumatlandırırdı. AzSSR MİK bütün qəza icraiyyə komitələrində arxiv sənədlərinin satılması və məhv edilməsinin qarşısının alınması üçün ciddi tədbirlər görür, tapşırıqlar verirdi. Bu sahədə həyata keçirilən mühüm tədbirlərdən biri AzMİK və XKS-nin 25 mart 1928-ci il tarixli "Arxiv materiallarının tələf edilməsinə qarşı mübarizə tədbirləri haqqında" qərarı oldu.

Azərbaycanda arxiv işinin inkişafında baş vermiş əhəmiyyətli hadisələrdən biri də 1928-1929-cu illərdə respublikamızın qəzalarında arxivlərin təşkil edilməsi idi. Yerlərdə arxiv sahəsində biliyə və təcrübəyə malik mütəxəssislərin yoxluğuna baxmayaraq, MDA-i 1927-ci il 10 dekabr tarixli Kollegiya iclasında respublikamızın qəzalarında arxivlərin yaradılması məsələsini müzakirəyə çıxarır və bununla bağlı XMK-a müraciət edir. Müraciətdə qəza arxiv bürolarının yaradılmasının zərurliyi və tələb olunan xərclər əsaslandırılır. XMK bununla bağlı Xalq Maliyyə Komissarlığının və digər aidiyyəti qurumların razılığını alaraq respublikamızda qəza icraiyyə komitələrinin yanında arxiv bürolarının yaradılması barədə təkliflərini Azərbaycan SSR Xalq Komissarları Sovetinə təqdim edir.

AzMİK-nin və XKS-nin 11 iyul 1928-ci il tarixli qərarı ilə Azərbaycan SSR-də qəza arxiv büroları yaradılır. Qəza arxiv büroları haqqında Əsasnamənin layihəsi və xərclər smetası hazırlanaraq təsdiq üçün XKS-ə təqdim edilir. Azərbaycan SSR-nin Xalq Komissarlar Sovetinin 25 iyul 1928-ci il tarixli iclasında MDA-nin təqdim etdiyi qəza arxiv büroları haqqında Əsasnamənin layihəsinə baxılır və təsdiq edilir. Əsasnaməyə görə qəza arxiv büroları Mərkəzi Dövlət Arxivinin yerlərdəki şöbələri hesab edilir və yerli icraiyyə komitələrinin rəyasət heyətlərinə tabe olmaqla onlar tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur. Qəza arxiv bürolarına MDA kollegiyası ilə razılaşdırılaraq yerli icraiyyə komitələri tərəfindən təyin edilən arxivçi rəhbərlik edir.

Əsasnamə ilə qəza arxiv bürolarına VDAF-a məxsus inqilaba qədərki və sovet dövrünə aid sənədlərin ərazi prinsipi üzrə qəbulu həvalə olunur. Xalq Komissarları Sovetinin qeyd olunan iclasında həm də qəza arxiv bürolarının smetası və ştat sayı təsdiq edilir. Qərara əsasən Gəncə və Dağlıq Qarabağ arxiv bürolarına üç, digər qəza arxiv bürolarına iki ştat vahidi müəyyən edilir, qəza arxiv bürolarının saxlanılmasına illik 24.664 manat maliyyə vəsaitin xərclənməsi nəzərdə tutulur. Beləliklə Naxçıvan Muxtar Respublikasının Mərkəzi Dövlət Arxivinin və respublikamızın şəhər və rayonlarda arxiv bürolarının yaradılması ilə tədricən ölkə miqyasında dövlət arxivlərinin şəbəkəsi formalaşdırılır.

Azərbaycanda arxiv işinin inkişafı tarixində baş vermiş əlamətdar hadisələrdən biri də 19 may 1929-cu ildə Bakıda Zaqafqaziya dövlətlərinin Mərkəzi Arxivlərin nümayəndələrinin iştirakı ilə I müşavirənin keçirilməsi oldu. Həmin müşavirədə Zaqafqaziyanın mərkəzi arxiv orqanı olan Zaqafqaziya Mərkəzi Arxivləri Sovetinin yaradılması barədə qərar qəbul edilir. Zaqafqaziya Mərkəzi Arxivləri Sovetinin ilk iclası 26 iyul 1929-cu ildə Tiflisdə çağırıldı, həmin iclasda Mərkəzi arxivlərin maliyyə və ştat məsələləri müzakirə edildi və Zaqafqaziya Mərkəzi Arxivlər Sovetinin əsasnaməsi təsdiq olundu.

1928-1930-cu illərdə arxivlərin fəaliyyət dairəsinin genişlənməsi, rayon arxiv bürolarının yaradılması bu sahədə dövlət idarəetmə işinin təkmilləşdirilməsinə zərurət yaranır. ASSR MİK-nin Rəyasət Heyəti ölkədə arxiv işi sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədlə 19 aprel 1930-cu ildə "Mərkəzi Dövlət Arxivinin yenidən təşkili barəsində qərar qəbul edir. Həmin qərarla Azərbaycan SSR Mərkəzi Arxiv İdarəsi (MAİ) yaradılır və onun Əsasnaməsi təsdiq edilir. Azərbaycan SSR Mərkəzi Arxiv İdarəsinin üzərinə ölkəmizin Vahid Dövlət Arxiv Fonduna rəhbərlik, arxiv quruculuğu sahəsi ilə bağlı normativ hüquqi sənədlərin layihələrinin hazırlanması və qanunvericilik orqanlarına təqdim edilməsi, respublika ərazisində fəaliyyət göstərən bütün arxiv təşkilatlarının işinə ümumi nəzarətin təşkili, arxiv sənədlərinin (o cümlədən fotoneqativlərin, kinolentlərin) cəmləşdirilməsi, mühafizəsi, uçotu, həmçinin elmi-tədqiqat işlərinin və arxiv materiallarından sosial-iqtisadi və mədəni quruculuq vəzifələrinin yerinə yetirilməsində kömək üçün istifadənin təşkili, sənədlərin qanunsuz məhv edilməsinə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi vəzifələri qoyulur.

MAİ-yə Azərbaycan SSR MİK-i Rəyasət Heyətinin təyin etdiyi müdir rəhbərlik edir və idarədə tərkibi MİK tərəfindən təsdiq edilən kollegiya yaradılır. 1930-cu ildə təsdiq edilmiş "Azərbaycan SSR Mərkəzi Arxiv İdarəsinin Əsasnaməsi"nə uyğun olaraq Mərkəzi Dövlət Arxivinin bazasında Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivi və Mərkəzi Dövlət Tarix Arxivi yaradılır. Mərkəzi Dövlət Tarix Arxivində 1917-ci il Oktyabr inqilabına qədərki dövrə aid, Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivində isə 1917-ci ildən sonrakı dövrə aid sənədlər, həmçinin elmi-tarixi əhəmiyyətə malik kinofoto sənədlərin neqativlərinin mühafizəsi nəzərdə tutulur.

1938-ci ildə Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivinin adı dəyişdirilərək Oktyabr İnqilabı və Sosializm Quruculuğu Mərkəzi Dövlət Arxivi adlandırılır. 1943-cü ildə Mərkəzi Dövlət Arxivinin infotosənədlər şöbəsinin bazasında Azərbaycan SSR Mərkəzi Dövlət Kinofotofono Sənədlər Arxivi təşkil edilir. AzMİK-nin 24 noyabr 1930-cu il tarixli qərarı ilə Azərbaycan SSR-nin rayon arxiv bürolarına dair Əsasnamə də təsdiq edilir. Bununla da dövrün siyasi və ideoloji əsaslarına uyğun olaraq dövlət arxiv fondunun sənədləri həm inzibatı-ərazi vahidləri üzrə təşkil edilərək sovet dövrə qədərki və sovet dövrü sənədlərinə bölünərək mühafizəsinin təşkilinə başlanılır.

Ölkədə arxiv işinin dövlət idarəetməsini həyata keçirən orqan olaraq AzSSR Mərkəzi Arxiv İdarəsinin yaradılması respublikamızda arxiv işinin təşkili və inkişafında yeni mərhələnin əsasını qoydu. AzSSR MİK-nin 1930-cu illərdə ölkədə arxiv işinin təşkili və təkmilləşdirilməsi ilə bağlı ardıcıl olaraq qəbul etdiyi qərarlar bu işi daha da sürətləndirir. Azərbaycan MİK-nin Rəyasət Heyəti 26 mart 1934-cü ildə "AzSSR Mərkəzi Arxiv İdarəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "AzSSR rayon arxivlərinin Əsasnamələrinin təsdiqi barədə" qərarlar qəbul edir. Həmçinin ölkədə arxiv sənədlərindən daha səmərəli istifadənin təşkili, kolxoz və sovxozlarda, icraiyyə komitələrində, Maşın-Traktor stansiyalarında (MTS) arxiv sənədlərinin mühafizəsi və istifadəsi işinin təkmilləşdirilməsi məqsədilə "AzSSR-nin arxiv sərvətlərindən istifadə edilməsi", "Kənd sovetləri, rayon icraiyyə komitələri, kolxoz, sovxoz, MTS-lərin arxivləri haqqında", "Azərbaycanda arxiv işinin vəziyyəti barədə" qəbul edilmiş qərarlar ölkədə arxiv sənədlərinin mühafizəsi üçün binaların ayrılması, kadr təminatının yaxşılaşdırılması, rayon dövlət arxivlərində işin təşkilinə müsbət təsir göstərdi.

Sahə üzrə dövlət orqanlarının arxiv işi ilə əlaqəli qəbul etdiyi qərarlar, təlimatlar, bütövlükdə, ölkə üzrə arxiv işi ilə bağlı normativ hüquqi bazasının daha da möhkəmlənməsinə, sənədlərin mühafizəsi və istifadəsi işinin yaxşılaşdırılmasına xüsusi töhfə verdi. Azərbaycan SSR Mərkəzi Arxiv İdarəsinin yaradılması və dövlət arxivləri şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər, qəbul edilmiş qərarlar ölkədə fəaliyyət göstərən və keçmiş təşkilatların ictimai-siyasi, elmi-tarixi əhəmiyyət kəsb edən bütün növ sənədlərinin (kağız, foto-kino, dövri ədəbiyyatın) VDAF-da toplanılmasında yaranan problemlərin tədricən aradan qaldırılmasını təmin etdi. Arxiv sənədlərinin qaydaya salınması, elmi-məlumat aparatının yaradılması, fondların adlı və tematik göstəricilərinin hazırlanması, arxivin ilk çap orqanı olan "ASSR Mərkəzi Arxiv İdarəsinin büllüteni"nin nəşrinə başlanılması arxiv sərvətlərindən istifadə edilməsi kimi prinsipial məsələlərin həlli yollarını müəyyən etməklə arxiv işinin inkişafında yeni mərhələnin başlanğıcını qoydu, milli tariximizin öyrənilməsində əvəzsiz mənbə olan zəngin sənəd bazasının formalaşdırılmasını təmin etdi.

Bütövlükdə, 1920–1930-cu illər Azərbaycanda arxiv işinin inkişafı tarixinə sənəd materiallarının toplanılması, qaydaya salınması və onlardan istifadənin təşkili dövrü kimi daxil oldu. Bu dövrdə xalqın milli sərvəti olan dövlət arxiv fondunda tarixi keçmişimizlə bağlı elmi, tarixi və əməli əhəmiyyətə malik minlərlə sənəd komplektləşdirildi, ölkə miqyasında arxiv təşkilatları şəbəkəsi yaradıldı və onun strukturu daha da təkmilləşdirildi.

SSRİ Ali Sovetinin 1938-ci il 16 aprel tarixli qərarı ilə Mərkəzi Arxiv İdarələrinin Xalq Daxili İşlər Komissarlığının (NKVD) tabeliyinə verilməsi arxivləri tam olaraq siyasiləşmiş orqanlara çevirdi. Arxivlərdən və arxiv sənədlərindən dövrün siyasi-ideoloji əsaslarına uyğun istifadə olunmasına başlanıldı. Arxivlərin Xalq Daxili İşlər Komissarlığının tərkibinə daxil etməklə qapalı təşkilata çevrilməsi isə onların elmi-tədqiqat müəssisəsi statusunun qismən itirilməsinə və arxiv materiallarından daha çox siyasi məqsədlər üçün istifadə edilməsinə səbəb oldu.

**(ardı var)**

***Əsgər RƏSULOV,***
***Milli Arxiv İdarəsinin rəisi,***

***Həsən HƏSƏNOV,***
***rəis müavini***

Unutsaq, unudularıq

# Zərdabinin müəllim qızı

## Görkəmli pedaqoq Qəribsoltan Məlikovanın maarifçilik örnəyi

**Tanınmış pedaqoq Qəribsoltan Həsən bəy qızı Məlikova 1886-cı il iyunun 11-də Zərdabda anadan olmuşdur. Tiflisdə rus-qız gimnaziyasını bitirmiş, sonra anası Hənifə xanımın 1901–1905-ci illərdə direktoru olduğu nümunəvi qız məktəbində oxumuşdur. Qəribsoltan xanım atası H.Zərdabinin vəfatından 3 il sonra – 1910-cu ildə pedoqoji fəaliyyətə başlamışdır.**



Hənifə xanım fəxr edirdi ki, qızı Qəribsoltan xanım 1914-cü ildə İmperator Üçüncü Aleksandr adına Birinci Bakı kişi gimnaziyasının Pedoqoji Şurasında bütün sınaqlardan keçmiş, xalq məktəblərinin müəllimi adına layiq görülmüşdür. Onun almış olduğu bu ad təkcə demokratik düşüncə tərzinə malik valideynlərin nailiyyəti deyil, eyni zamanda, bütün azərbaycanlı qadınların irəliləyişi, onların oxumaq və başqalarını da öyrətmək imtiyazlarının təsdiqi idi.

Qəribsoltan xanım 1915-ci ildən 1918-ci ilədək Bakıdakı Rus-Tatar (Rus-Azərbaycan) qız məktəbində dərs demiş, 1918–1920-ci illərdə Rus-Tatar qız gimnaziyasında müəllim işləmişdir.

Atasının "burjua jurnalisti", "qəzet sahibkarı" adlandırılması, "Əkinçi" qəzetinin "zərərli ideyalar" yayıcısı kimi ittiham olunub yasaq edilməsi, ailə üzvlərinin repressiyası səbəbindən Qəribsoltan xanım Gəncəyə gedərək orada sakit həyat sürmək istəmişdir. O, bir müddət Şəmkirdə müəllim işləmişdir.

Bəzi məlumatlara görə, İkinci Dünya müharibəsi illərində o, görkəmli bəstəkar, əslən zərdablı olan, SSRİ Xalq artisti, sabiq mədəniyyət naziri Rauf Hacıyevin anası Nanə xanımla doğma Zərdaba köçür və hər ikisi Zərdab məktəbində müəllim işləmişdir. Qəribsoltan xanım ərə getməmişdir. Özü ana olmasa da, görkəmli bəstəkar Rauf Hacıyevin və onun bacısı Adilənin təlim-tərbiyəsi ilə məşğul olmuş, onları ərsəyə çatdırmışdır. Qəribsoltan xanım uzun müddət Bakıda kimsəsiz uşaqların oxuduğu internat məktəbində də dərs demiş, onlara analıq etmişdir. Şahidlər deyirlər ki, bu xanım maaşını və pensiyasını da həmin uşaqlara paylayırmış.

S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Qəribsoltan xanımın həyatı və fəaliyyəti ilə bağlı araşdırmalar apararkən ona verilən attestat (F.№ 653. S.1. iş 43) diqqətimi cəlb etdi.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən təsdiq olunmuş 4 noyabr 1938-ci il tarixli, 7564 nömrəli həmin attestatda yazılmışdır: "1918-ci ildə Bakıda qadınlar gimnaziyasının 7-ci sinfini bitirmiş və pedaqogika işi üçün təyin edilmiş imtahan stajını məktəbdə keçmiş Qəribsoltan Həsən qızı Məlikova SSRİ Mərkəzi İcraiyə Komitəsi və Xalq Komissarları Sovetinin müəllimlərə fəxri ad verilməsi haqqındakı 1936-cı il 10 aprel tarixli qərarına əsasən, ibtidai məktəb müəllimi adını alır". O zaman ibtidai məktəb müəllimi adını almış Qəribsoltan xanım artıq Bakıda III rus-müsəlman qız məktəbində müəllim işləyirdi.

Qəribsoltan xanım dərin fikir içində, xəyallarla yaşayır, atası Həsən bəylə, anası Hənifə xanımla birgə keçirdiyi illər ərzində gördüyü, şahidi olduğu, yadında qalan günlərin tarixi yaddaşlarda qalması üçün onları qələmə alır və bu tənha insan bununla özündə bir qədər rahatlıq tapırdı. O, "Atam haqqında xatirələrim"də yazırdı: "Atam qonaq qəbul etməyi çox sevirdi... Atam onda "Kaspi" qəzetinin redaksiyasında işləyirdi. Bir dəfə o, qulluqçusunu evə göndərərək anama xəbər verdi ki, redaksiyaya onun yanına Rusiyadan qonaqlar gəliblər və onları hörmətlə qarşılamaq lazımdır.

Anam bu xəbəri bizə çatdırdı. Biz təzə paltarlarımızı geyindik. Axşam atam qonaqlarla birlikdə evə gəldi, anam onları eyvanda qarşıladı. Anamın rus dilində mükəmməl danışmağı onların çox xoşuna gəldi. Onlar gecə yarısına qədər oturdular... Atam yalnız səhər bizə dedi ki, qonaqlardan biri yazıçı Maksim Qorki, o biri isə məşhur müğənni Şalyapin idi".

1937-ci ildə xəbər yayılır ki, yeni çəkilən Bakı–Salyan şosse yolu Şıx kəndindəki Bibiheybət məscidinin ətrafında yerləşən qəbiristanlıqdan keçəcək. Kim istəsə, doğmalarının, yaxınlarının məzarını köçürə bilər. O zaman Həsən bəyin ailəsindən kim qalmışdı? Həyat yoldaşı Hənifə xanım 1929-cu ildə Bakı şəhərində vəfat etmişdi, böyük qızı Pəri xanım Topçubaşova Fransada mühacirətdə vətən həsrəti ilə yaşamış və geri dönə bilməmiş, 1947-ci ildə orada dünyasını dəyişmişdi. Böyük oğlu Midhəd bəy Almaniyada oxumağa göndərilmiş Cümhuriyyət tələbələrindən idi. Bakıda, Gəncədə yaşamışdı. O, Azərbaycanın işıqlı, xoşbəxt gələcəyi uğrunda aparılan qurucuğ işlərinin qurbanı olmuş, ermənilərin donosu və üzə durması ilə 1937-ci ildə güllələnmişdi (1990-cı ildə bəraət alıb). Kiçik oğlu Səffət bəy Fransada, sonra isə Türkiyədə yaşamış, təhsilini başa vurduqdan sonra Bakıya dönməyə çəkinmişdi. Bu zaman Bakıda Həsən bəyin ailəsindən yalnız evin sonbeşiyi Qəribsoltan xanım qalmışdı.

Həsən bəyin dəfnindən 50 il keçdikdən sonra, yaranmış mövcud vəziyyətə görə bu dahi insanın uyuduğu məzarın yeri mütləq dəyişdirilməli idi. Lakin, bunu kim etməli idi?.. Xəbəri eşidən Qəribsoltan xanım təlaş içində nə edəcəyini, kimə üz tutacağını bilmir. Çıxış yolunu fəhlə tapıb Bakı–Salyan şose yolunun tikintisi altında qalacaq cənazəni tez bir anda qəbirdən çıxarmaqda görür. Elə də edir və pul verib iki nəfər fəhlə tutur. 1937-ci ilin payızında mərhumun cəsədinin qalıqları yeşiyə yığılır və muzdluların çiyinlərində Bayıla qədər gətirilir. Buradan isə tramvayla Qəribsoltan xanımın evinə aparılıb ona təhvil verilir.

Qeyd etdiyim kimi, iztirablı həyat tərzi keçirən zavallı xalq müəllimi 1929-cu ildə anasını itirmişdi. Böyük qardaşı Midhəd bəy 1937-ci ildə güllələnmiş, kiçik qardaşı Səffət bəydən ömrünün sonuna qədər xəbər tuta bilməmişdi. Parisdə yaşayan bacısı Pəri xanımın başına nələr gəldiyindən xəbərsiz olmuşdu. Həyatının son illərində APİ-nin fizika kafedrasının müdiri vəzifəsində işləyən qardaşı oğlu Rəhim bəy isə 1936-cı ilin fevralın 23-də Bakıda dünyasını dəyişmişdi.

Qəribsoltan xanım Şəmkirin Zəyəm kəndində müəllim işləyərkən hədə-qorxuya, təhqirlərə məruz qalmış, ölüm qorxusu keçirmiş, əsəbləri pozulmuşdu. Yeganə təsəlli yeri o idi ki, atası Həsən bəyin cəsədinin yeşiyə yığılmış sümükləri, ruhu onun yanında idi. İşə baxın ki, Həsən bəyin gor evi bir neçə il qızı Qəribsoltan xanımın mənzili olmuşdur.

Həsən bəyin vəfatının 50 ili ərəfəsində də dahi mütəfəkkirin xatirə gününün qeyd olunması məsələsini tanınmış ədəbiyyatçı alim Abbas Zamanov Azərbaycan KP MK qarşısında qaldırır. Mərkəzi Komitənin şöbə müdiri Şıxəli Qurbanov məsələyə qarışır və yubiley komissiyası təşkil olunur. Layihə üzrə qəbrin abadlaşdırılması məsələsinə baxılan zaman məzarın harada olması sualı ortaya çıxır və onun yerini heç kəs bilmir. Bu zaman Qəribsoltan xanım yada düşür və ona müraciət etməli olurlar. Abbas Zamanov, tanınmış bioloq alim Mirəli Axundovla və eyni zamanda bir neçə filosof alimlə birlikdə Qəribsoltan xanımın yaşadığı mənzilə, onun yanına gəlirlər.

Gələnlərə: "Atamın hər şeyini məhv etdiniz, indi də gəlmisiniz sümüklərini aparmağa? Bir də bu evə ayaq basmayın!" – deyən Qəribsoltan xanım, nəhayət, əsəbləri alə aldıqdan sonra atasının 1937-ci ildə anası Hənifə xanımın yanında basdırıldığını bildirir. A.Zamanov tələbələri ilə birlikdə şəhər qəbiristanlığına üz tutur, Hənifə xanımın məzarı açılır, Həsən bəyin qutuya yığılan, xanımının ayaqları altında basdırılan sümükləri qəbirdən çıxarılır. Beləliklə, Həsən bəy 1957-ci ildə, üçüncü dəfə Fəxri xiyabanda dəfn olunur.

Digər tərəfdən oxucularımıza belə bir məlumat vermək istərdim ki, xalqımızın dahi incəsənət xadimlərinin, görkəmli dövlət xadimlərinin əbədi yuxuya daldıqları Fəxri xiyabanın salınması Mir Cəfər Bağırovun adı ilə bağlıdır. 1948-ci ilin avqust ayının 27-də M.C.Bağırovun tapşırığı ilə Azərbaycan SSR Nazirlər Soveti qərar qəbul etmişdir. Həmin qərara əsasən, qəbirinin köçürülməsi qərara alınan 12 nəfərdən biri də Həsən bəy Zərdabi olmuşdur. Fəxri xiyabanın ilk sakinləri arasında Həsən bəy Zərdabinin adı 3-cü şəxs olaraq qeyd olunmuşdur.

Onu da qeyd edim ki, bu günədək Həsən bəy Zərdabinin həyatı, onun dəfni ilə bağlı gedən yazılarda, tədqiqat işlərində Azərbaycan SSR Nazirlər Soveti tərəfindən belə bir qərarın qəbul edilməsi barədə məlumat verilməmişdir.

Qayıdaq Qəribsoltan xanıma. Onun uzunmüddətli, qüsursuz pedaqoji fəaliyyəti nəzərə alınmış, 1948-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, maarif sahəsində fəaliyyətinə görə "Lenin ordeni" ilə təltif olunmuşdur. Qəribsoltan xanım 1956-cı ilədək müəllim işləmişdir.

Bütün həyatını xalqının maariflənməsinə, təhsilinə həsr edən, iztirablı həyat tərzi keçirən, üzüntülərə dözə bilməyən Qəribsoltan xanım Həsən bəy qızı Məlikova 1967-ci il mart ayının 9-da Bakıda vəfat etmişdir.

Bu gün müstəqil Azərbaycan Respublikasında bütöv azərbaycançılıq məfkurəsi ilə milli maarifçilik hərəkatında misilsiz xidmətləri olan Məlikovlar ailəsi böyük ehtiramla yad olunur.

*Eldəniz HƏSƏNOV,*
*Aqrar elmləri üzrə fəlsəfə doktoru,*
*Beynəlxalq Ekoenergetika Akademiyasının ekologiya üzrə professoru*

# Xalq şairi "Xalq qəzeti"nin redaksiyasında

**5 İyun Şairlər Günündə Dünya Azərbaycanlıları Konqresinin həmsədri, görkəmli ictimai-xadim, Xalq şairi Sabir Rüstəmxanlı redaksiyamızın qonağı oldu. Ondan "XalqTV" efiri üçün yenicə çapdan çıxmış əsərlərinin 15 cildliyi ilə bağlı müsahibə almaq istəyirdik. Amma yaradıcı kollektivimizin üzvləri şairin başına toplaşaraq onu söhbətə tutdular və biz də müsahibəni 1 saatlığına ertələyib kollektivlə görüşün təsir dairəsinə düşdük.**



"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov qonağı salamlayaraq bu görüşün məhz Şairlər Gününə təsadüf etdiyini vurğuladı və Sabir Rüstəmxanlının ibrətamiz "Ömür kitabı", yaradıcılıq aspektləri, bir zaman onunla birlikdə Milli Məclisdə deputatlıq fəaliyyətinin bəzi məqamları barədə danışdı, birgə xarici səfərlərini, rəsmi dairələrdə və ictimai tədbirlərdə cəsarətli çıxışlarını yada saldı.



Sabir Rüstəmxanlı anadilli mətbuatımızın 150 illiyi ərəfəsində olan bu görüşdən məmnunluğunu bildirdi. O, hələ universitetin 4-cü kursunda oxuyarkən "Ədəbiyyat qəzeti"nə işə götürüldüyünü bildirdi və çətin jurnalist əməyinə bütün varlığı ilə bələd olduğunu diqqətə çatdıraraq, media təmsilçilərini yubiley münasibətilə təbrik etdi. Bir zamanlar "Yazıçı" nəşriyyatında baş redaktor, 20-ci əsrin sonunda müstəqillik dövrünün ilk qəzeti olan "Azərbaycan"ı buraxdığını, bir neçə il Mətbuat naziri olduğunu yada salan şair mətbuatın ictimai-siyasi və sosial həyatda rolunu yüksək dəyərləndirdi.

Sonra Xalq şairi Sabir Rüstəmxanlı görüş iştirakçılarının suallarını cavablandırdı, "Sağ ol, ana dilim", "Salam, Gəncə qapısı", "Qan yaddaşı", "Ömür kitabı" kimi əsərlərinin, nəsr nümunələrinin, publisistik yazılarının yaranma tarixçələrindən bəhs etdi. Özünün və digər qələm sahiblərinin azadlıq hərəkatında iştirakı ilə bağlı xatirələrini bölüşdü, bir neçə il deputatı olduğu Milli Məclisdə xalq naminə təəssübkeşlik örnəyi saydığımız çıxışlarına toxundu. Onun əsərlərinin 15 cildliyinin AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) təqdimatının yaddaqalan məqamlarına da toxunuldu.

Görüşdə redaksiya əməkdaşlarının şeirlər oxuması bir növ Şairlər Gününə yaradıcılıq hesabatı oldu və Sabir Rüstəmxanlı səslənən nümunələr barədə fikirlərini bildirdi. Sonda xatirə şəkilləri çəkdirildi.

Ardınca Xalq şairindən "XalqTV" üçün müsahibə aldıq. Sabir müəllim şeir sənətinə gəlişi, doğma yurdu Yardımlıda uca dağların başına çıxarkən Savalandan əsən yelləri, sərhəd zonasında cadar bağlamış torpağın harayının onu qələmə sarılmağa vadar etdiyi barədə duyğu və düşüncələrini dilə gətirdi. Ona xatırlatdıq ki, çoxcildliyin MEK-dəki təqdimatı görkəmli alimlərin, qələm sahiblərinin müəllif haqqında çox yüksək fikirlər söyləməsi ilə əlamətdar oldu. Məsələn, akademik Rafael Hüseynov şairin əsərlər külliyyatını obrazlı şəkildə "Azərbaycannamə" adlandırdı. Cavabında Xalq şairi bildirdi ki, yaradıcı bir insan kimi, 15 cildliyin nəşrini çiynindən ağır bir yükün götürülməsi kimi qəbul etsə də, bu, hələ son deyil və ömür vəfa etdikcə daha neçə cild əsər yazıb bir yerə toplamaq arzusundadır.

Beləcə, Şairlər Günündə redaksiyamızın qonağı olan Xalq şairi Sabir Rüstəmxanlı bütün şüurlu həyatını, yaradıcılığını azərbaycançılıq məfkurəsinə xidmətə, istedad və bacarığını xalqa, millətə həsr edən görkəmli ziyalılarımızdan biri kimi hər kəsdə xoş təəssürat, nikbin ovqat yaratdı.

*Ə.DOSTƏLİ*
*XQ*

# Azərbaycanda xristianlığın tarixi və dini tolerantlıq



**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində "Azərbaycanda xristianlıq: Tarix, müasir dövr, perspektivlər" mövzusunda dəyirmi masa keçirilib.**

Müzakirəni giriş sözü ilə açan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Azərbaycan, tarixən müxtəlif sivilizasiyaların və dinlərin qovuşduğu bir coğrafiyada yerləşir. Ölkəmizdə əsrlər boyu müxtəlif etnik və dini qruplar birgə qarşılıqlı hörmət və sülh şəraitində yaşamışlar.

Bu harmoniyanın əsas sütunlarından biri isə Azərbaycanda mövcud olan dini müxtəlifliktir. Dini müxtəliflik ölkəmizin zənginliyidir.

Qeyd edilib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu zənginliyin təşviqi və təbliği istiqamətində geniş fəaliyyət göstərir. Xristian icmaları ilə əməkdaşlıq, onların mədəniyyətinin və dini irsinin öyrənilməsi, gələcək nəsillərə ötürülməsi və beynəlxalq aləmə təqdim olunması üçün davamlı əhatəli iş aparılır. Azərbaycanda hər bir dinin, eləcə də xristianlığın dinc, azad və təhlükəsiz şəkildə mövcud olması ölkəmizin tolerantlıq modelinin real göstəricisidir.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksey Smirnovun moderatorluğu ilə davam edən müzakirədə Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev qeyd edib ki, Azərbaycanda digər dinlərin nümayəndələrinə qarşı heç vaxt ayrı-seçkilik edilməyib və bu ənənə bu gün də uğurla davam etdirilir. Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev isə bildirib ki, tarixən bu torpaqlarda müsəlmanlar, yəhudilər, xristianlar və digər dinlərin nümayəndələri dinc və qarşılıqlı hörmət əsasında birgə yaşayıblar.

Sonra yepiskop Aleksey Smirnovun "Azərbaycanda pravoslavlıq: dünən, bugün, sabah", Alban-Udi Dini İcmasının sədri Robert Mobilinin "Dini konfessiyalararası məkanda Alban (Qafqaz) kilsəsinin Alban-Udi pravoslav xristian icmasının modeli", Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturasının nümayəndəsi Jozef Marekin "Katolik Kilsəsi Azərbaycanın dini palitrasında", Azərbaycan Bibliya Cəmiyyətinin sədri Rasim Xəlilovun "Azərbaycanda son 30 ildə protestant xristianlığın inkişafı və fəaliyyəti", Azərbaycanın Yevangelik-Lüteran İcmasının nümayəndəsi Vera Nesterovanın "Azərbaycanda xristianlıq: tarix, müasir dövr, perspektivlər" mövzularında məruzələri dinlənilib.

Məclis iştirakçıları Azərbaycanda Rus Pravoslav Kilsəsinin tarixi haqqında video-çarxa və ölkəmizdə dini tolerantlığı əks etdirən fotosərgiyə də baxıblar.

*T.RÜSTƏMLİ*
*XQ*

# Azərbaycan və Türkiyə media qurumlarının ortaq hədəfləri




**Türkiyə–Azərbaycan media əməkdaşlığı fəal, davamlı xəbər mübadiləsi ilə yanaşı, qlobal informasiya savaşında ortaq dəyərlərin, strateji hədəflərin qorunması ilə bağlı əlbir səylərı də əhatə edir. Türkiyə Səfirliyi Mətbuat müşavirliyi və Azərbaycanın Sosial Tədqiqatlar Mərkəzinin təşkil etdiyi müzakirədə bu mövzu ilə bağlı ətraflı diskussiya keçirildi.**

"Türkiyə - Azərbaycan Media Platforması" çərçivəsində keçirilən və dezinformasiyaya qarşı mübarizənin aktuallığına həsr edilmiş müzakirədə düşmən mərkəzlərin ölkələrimizə qarşı yaydığı dezinformasiyanın yaratdığı təhlükələr, onunla mübarizə yolları və bu sahədə iki ölkənin ortaq strategiya formalaşdırmasının vacibliyi vurğulandı.

Türkiyə səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir "Bir millət, iki dövlət" gerçəyinin media sahəsində daimi mövzulardan birinə çevrilməsinin vacibliyini söylədi. O bildirdi ki, iki ölkənin mediası qurumları arasında əlaqələrdə birgə fəaliyyəti təmin etmək üçün Türkiyə Azərbaycan Media Platforması çərçivəsində 6 komitənin yaradılması nəzərdə tutulur.

STM-in İdarə Heyətinin rəhbəri, Milli Məclisin deputatı Zahid Oruc isə qeyd etdi ki, informasiya savaşında yalan məlumatın sərhədləri aşan silaha çevrildiyi bir dövrdə Azərbaycan və Türkiyə dost və qardaş ölkələr kimi informasiya təhlükəsizliyi sahəsində birgə strategiya formalaşdırmalıdır. O, media əməkdaşlığının yalnız xəbər mübadiləsi ilə məhdudlaşmayıb, ortaq dəyərlərin, milli maraqların və strateji mövqelərin qorunmasını da ehtiva etməli olduğunu söylədi.

Müzakirələrdə sosial mediada yalan məlumatların sürətlə yayılması, süni intellektlə yaradılan saxta məzmunlar və informasiya manipulyasiyası ilə mübarizədə ortaq media monitorinqi mərkəzlərinin yaradılması təklifi də gündəmə gətirildi. Qeyd edildi ki, söylənən mülahizələr yalnız iki ölkə arasında deyil, bütövlükdə türk dünyasında informasiya təhlükəsizliyinin möhkəmləndirilməsinə, milli maraqların müdafiəsinə və ortaq platformaların inkişafına hədəflənib.

*Namiq QƏDİMOĞLU*
*XQ*




## 1 sərgi –1000-dən çox iş yeri

**Bu, Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) keçirilən 17-ci Karyera Sərgisində baş verib! Sərgidə dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, özəl sektor təmsilçiləri və universitet rəhbərliyi iştirak ediblər.**



Universitetin rektoru Zəfər Qurbanov giriş sözündə bu cür sərgilərin gənclərin real əmək bazarına inteqrasiyasında mühüm rol oynadığını vurğulayıb. Rektor qeyd edib ki, ADAU-nun əsas məqsədi təkcə nəzəri bilik verən təhsil müəssisəsi olmaq deyil, eyni zamanda tələbələri müasir dövrün tələblərinə cavab verən peşəkar kadrlar kimi formalaşdırmaqdır.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə aqrar sahənin inkişafı prioritet istiqamətlərdən biri elan edilib. Kənd təsərrüfatı təkcə ərzaq təhlükəsizliyinin təminatçısı deyil, həm də regionların sosial-iqtisadi inkişafının, məşğulluğun artırılmasının və innovativ texnologiyaların tətbiqinin mühüm platformasıdır.

Nazir Məcnun Məmmədov əlavə edib ki, ADAU elmi biliklərlə zəngin, beynəlxalq təcrübəyə malik, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması işinə misilsiz töhfələr verməkdədir. Son illərdə universitet tərəfindən həyata keçirilən islahatlar – maddi-texniki bazanın gücləndirilməsi, ikili diplom proqramları, beynəlxalq əməkdaşlıqlar, startap və innovasiya təşəbbüsləri, tələbələrin xarici təcrübə proqramlarında iştirakı təhsilimizin gələcəyinə böyük ümidlər bəsləməyə əsas verir. Karyera sərgiləri gənclərin iqtisadiyyatın real sektorları ilə tanış olması, işəgötürənlərlə birbaşa ünsiyyəti, gələcək karyera istiqamətləri ilə bağlı doğru qərarlar verməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev, Türkiyənin Gəncə şəhərindəki Baş konsulu Recep Öztop, Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin müavini Ramal Quluzadə və "Prime Cotton" MMC-nin icraçı direktoru Rövşən Mahmudov sərginin gənclərin peşə inkişafında, məşğulluğun təmin olunmasında və dövlət-özəl sektor əməkdaşlığının güclənməsində əhəmiyyətini vurğulayıblar.

Sərgi zamanı iştirakçılar 150-dən çox şirkət və müəssisənin stendləri ilə tanış olub, işəgötürənlərlə birbaşa ünsiyyət qurmaq və mövcud vakansiyalar, təcrübə proqramları barədə məlumat almaq imkanı əldə ediblər. 17-ci Karyera Sərgisi çərçivəsində məzunlara 1000-dən çox vakansiya təqdim olunub.

Sərgi çərçivəsində "Prime Cotton" MMC ilə əməkdaşlıq çərçivəsində ADAU-da yaradılan Karyera və Əməkdaşlıq Mərkəzinin rəsmi açılışı da olub. Mərkəzin əsas məqsədi tələbələrin bilik və bacarıqlarının artırılması, onları real iş mühiti ilə tanış etmək, eləcə də şirkətin kadr ehtiyaclarının qısa, orta və uzunmüddətli perspektivdə təmin olunmasıdır. Mərkəz vasitəsilə pambıqçılıq sahəsinə maraq göstərən tələbələr üçün bir sıra fəaliyyətlər həyata keçiriləcək. Tələbələr "Gənc Aqronom" və "Gənc Mexanik" təcrübə proqramları barədə məlumat alacaq, I- IV kurs tələbələri arasından seçilən istedadlı gənclərlə "Prime Groups" komandaları yaradılacaq. Onların təlimlər, seminarlar, filial səfərləri və innovativ layihələrdə, o cümlədən "Agro Hackathon"da iştirak imkanları təmin olunacaq.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Beynəlxalq həyat**

## Cənubi Qafqaz: Regionda etimadsızlığı kim yaradır?




**Dünya tarixi ağır savaşlar, müharibələr tarixidir. Bu, acı və təəssüf doğurucu bir reallıqdır. Amma bu da bir həqiqətdir ki, tarix boyu ən qanlı toqquşmalar belə sonda sülhlə bitib. Əsasən, haqq, ədalət nahaqqa qalib gəlib. Fikrimizcə, 5 il əvvəl 44 günlük şanlı savaşda Azərbaycanın işğalçı Ermənistan üzərində qələbəsi də məhz ilahi ədalətin təcəssümü idi!**

Yada salaq ki, 30 il əvvəl havadarlarının açıq və gizli dəstəyi ilə ölkəmizin əzəli ərazilərinin bir qismini xaincəsinə ələ keçirən düşmən güman edirdi ki, min bir məkrlə işğal etdikləri yad torpaqlarda özünə yeni yurd qurub xoşbəxt olacaq. Haylar unudurdular ki, bu, mümkün deyil. Çünki Azərbaycan xalqı heç vaxt işğal faktı ilə barışa bilməzdi və barışmadı da! Düşmən yenildi və ifşa edildi!

Bəli, hayların bəd niyyətləri ürəklərində qaldı. Üstəlik, bütün dünya gördü ki, özünü bütün dünyaya məzlum, yazıq, səfil millət kimi göstərməyə çalışan ermənilər işğal altında saxladıqları ərazilərdə xalqımızın maddi və mədəniyyət abidələrinə qarşı ağlasığmaz, vandallıq hərəkətləri törədiblər. Sanki bu yerlərdən hayların timsalında vəhşi qəbilələr keçib! Bu, haylara əbədi utanc gətirən bir faktdır!

Bütün bu vəhşiliklərə rəğmən, qədim, zəngin və şərəfli tarixə sahib olan Azərbaycan xalqı Cənubi Qafqaz coğrafiyasında yaşayan ermənilər də daxil olmaqla, daim bütün xalqlarla sülh, əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamağın tərəfdarı olmuşdur. Dünən də belə olub, bu gün də belədir. İndi xoşbəxtlikdən Azərbaycan dövləti və xalqı regionda sabitliyin, inkişaf və tərəqqinin tərəfdarı və qarantı rolunda çıxış edir.

Müstəqil Azərbaycanın yüksək bəşəri və humanist dəyərlərdən qaynaqlanan daxili və xarici siyasəti hazırda bütün sivil dünya tərəfindən birmənalı olaraq qəbul və təqdir edilir. Cənubi Qafqaz regionunda sabitliyin bərqərar olunması üçün unikal tarixi fürsətlər yaranıb. Ermənistan ictimaiyyəti adi bir həqiqəti başa düşməlidir ki, qonşuları ilə əbədi düşmənçilik heç bir xalqa hörmət gətirmir.

Taleyin hökmü (bu məqamda çar Rusiyasının XIX əsrin 20-ci illərin sonlarından başlayaraq erməniləri Dağlıq Qarabağa köçürülmələri ilə bağlı məkrli planları yada düşür – müəllif) ilə eyni bir coğrafiyada yaşayan xalqlar bir-birilə ticari, iqtisadi və mədəni əlaqələr qurmağa və bu ənənələri sonrakı nəsillərə ötürməyə borcludurlar. Görünən budur ki, Azərbaycan regiondakı proseslərin pozitiv istiqamətdə inkişafında maraqlıdır və bunun üçün hərtərəfli səylər ortaya qoyur.

Məlumdur ki, Cənubi Qafqazda sülh və sabitlik yalnız bəşəri dəyərlərə və beynəlxalq hüquqa hörmət və riayət etməklə yarana və möhkəmlənə bilər. Təəssüf ki, Ermənistanın mövcud konstitusiyasında qonşu dövlətlərə, eləcə də Azərbaycana qarşı ərazi iddiaları təsbit olunub. Rəsmi Bakı İrəvandan haqlı olaraq bu prinsipial məsələnin ədalətli həllini tələb edir. Eləcə də Ermənistan hakimiyyətindən artıq 5 il əvvəl tarixin arxivinə verilmiş Minsk qrupunun fəaliyyətindən imtina etməsi tələb edilir.

Təəssüf ki, Ermənistanda Baş nazir Nikol Paşinyan hökuməti sözdə sülhdən dəm vursa da, əməldə hələ də ölkəmizə qarşı düşmənçilik siyasətindən əl çəkməyib. Ermənistanın Azərbaycana qarşı qərəzli siyasət yeridən Fransa və Hindistan kimi dövlətlərdən öldürücü modern silahlar alaraq sürətlə silahlanması region xalqları arasında narahatlıq doğurmaya bilməz.

Ermənistanın hazırda Azərbaycanla sülh sazişi imzalamaqdan başqa yolu qalmayıb. İrəvan isə yalnız sülhün imitasiyası ilə məşğul olur və bu istiqamətdə real addımlar atmır. Hayların bütün əvvəlki ərazi iddiaları fiaskoya uğrayıb. Tarixdən düzgün dərs almaq lazımdır. Yeganə yol sülhə doğru addımlar atmaqdır. Region üçün sülhün alternativi yoxdur.

Bakıdan dünyaya ingilis dilində yayımlanan, fəaliyyət göstərdiyi qısa zaman kəsiyində beynəlxalq informasiya məkanında özünə layiqli nüfuz qazanan "Anews" telekanalının əməkdaşları bu günlərdə Bakı, İrəvan və Tbilisidə sakinlərlə görüşərək, onlara belə bir sualla müraciət ediblər: İki xalq arasında sülh sazişi imzalarsa, bu, Cənubi Qafqazdakı proseslərə necə təsir göstərə bilər?

Vətəndaşlar bu barədə öz fikir və rəylərini sərbəst surətdə bölüşüblər. Həmin telereportajdan qısa bir fraqmenti oxucuların diqqətinə çatdırmaq istəyirik. Beləliklə, Bakı sakini Tural Məmmədli bu mövzuda telekanala eksklüziv müsahibəsində belə deyib:

– Əgər Ermənistan Zəngəzur dəhlizini açarsa, bu, olduqca böyük bir coğrafi məkanda, yəni Çin, Mərkəzi və Orta Asiyanı Avropa ilə birləşdirən Böyük İpək Yolu üzrə ticarət əlaqələrinin güclənməsi üçün şərait yaradacaq.

Tural Məmmədli, həmçinin hesab edir ki, həm Ermənistan, həm də Azərbaycan bundan yalnız qazanacaqlar.

Bir nəfər gənc Tbilisi sakini də Zəngəzur dəhlizi ilə bağlı təxminən eyni fikirdədir:

– Bu, Cənubi Qafqazda azad səyahət etmək, layiqli iş tapmaq imkanlarının genişlənməsinə gətirib çıxara bilər. Regiona yeni sərmayələrin yatırımı reallaşa və əlaqələrdə yeni münasibətlər üçün qapılar açıla bilər.

İrəvan sakini Marat (soyadı qeyd olunmayıb – müəllif) isə deyib:

– Biz sabitlik üçün bir-birimizlə əlaqələr qurmalıyıq. Bütün respublikalar davamlı olaraq inkişaf etməlidirlər. Xalqlar arasında dialoq olduqca zəruridir. Heç bir düşmənçilik olmamalıdır".

Bəli, Cənubi Qafqazın hər 3 respublikasının paytaxtında yaşayan sadə insanların çoxu regionda sülhün və sabitliyin bərqərar olunmasının tərəfdarlarıdır. Amma, Azərbaycan və Gürcüstandan fərqli olaraq, Ermənistan iqtidarı heç də xalqına sülh mesajları ötürmür. Bu ölkənin mediası isə qatı millətçilərin təzyiqi ilə anti-Azərbaycan təbliğatını daha da gücləndirir.

Ermənistanın rəsmi və özəl telekanlları, əksər mətbu nəşrlər açıq-şakar ölkə gənclərini revanşizmə səsləyirlər. Məsələn, İrəvanda David Matevosyan adlı bir nəfər yuxarıda adını çəkdiyimiz telerepojtajda bildirib ki, 2 ölkə arasında münaqişənin tarixi çox qədimdir və bu kontent ikitərəfli münasibətlərə uzun müddət kölgə salacaq. Onun sözlərinə görə, regionda bir çox böyük güclərin özəl maraqları var. Buna görə də sabitliyə aparan yol hələ çox uzaqdadır.

Bütün bu və digər faktlar bir daha göstərir ki, Ermənistan hökuməti regionda sülh və sabitliyin bərqərar olunmasında maraqlı deyil. Ölkə rəsmiləri heç də sadəlövh insanlar deyillər. Necə deyərlər, avam erməni olmur. Başa düşürlər ki, sülh prosesinə mane olmaqla, onlar, ilk növbədə, hayların gələcəyini təhlükə altına alırlar. Amma bunu etməyə məcburdurlar, çünki xarici dövlətlərdəki "boss"ları onlara sülh prosesini uzatmaq tapşırığı verib.

Həqiqət budur ki, böyük dövlətlərin əlində alət olan Ermənistan kimi satellit dövlətlər müstəqil siyasət aparmaq, sağlam məntiq və düşüncəyə söykənən müstəqil siyasət yürütməyə qadir deyillər.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Sağlamlıq**

## Oturaq iş – böyrəkdə şiş



**ABŞ mütəxəssisləri oturaq işlə sidik sistemi xərçəngi arasında əlaqə olduğunu bildiriblər. Onlar 2 min nəfərin iştirak etdiyi eksperimentdən sonra bu qənaətə gəliblər.**

Könüllü təcrübəyə cəlb edilənlər böyrək xərçəngi, eləcə də sidik kisəsi xərçəngi diaqnozu qoyulmuş xəstələr olub. Sağlam könüllülər isə ayrı bir qrupda nəzarətə götürülüblər. Bütün iştirakçılar yenidən tibbi müayinələrdən keçirilib.

Əldə edilən məlumatları tədqiq edən həkimlər böyrək və sidik kisəsində bədxassəli şişləri olan könüllülərin 70 faizdən çoxunun oturaq işlə məşğul olduğunu və ümumiyyətlə, gün ərzində az hərəkət etdiyini müəyyən ediblər.

Sağlam könüllülər qrupu isə gündəlik həyatlarında daha yüksək fiziki fəallıq göstərənlər olub.

Alimlər qeyd ediblər ki, böyrək və sidik kisəsi xərçənginin inkişafında əsas amilin insanın kifayət qədər fiziki fəaliyyət göstərməməsi olduğunu tam əminliklə söyləmək hələ mümkün deyil. Bu, digər tədqiqatlarla da təsdiqlənməlidir. Buna baxmayaraq, mütəxəssislər insanlara belə təhlükəyə məruz qalmamaq üçün daha çox hərəkət etməyi tövsiyə edirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

### "Xətai-Rabitə-Tikinti" ASC səhmdarlarının nəzərinə!

21 iyul 2025-ci il saat 14.00-da Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binada "Xətai-Rabitə-Tikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir:

Ümumi yığıncağın gündəliyi:

1. "Xətai-Rabitə-Tikinti"ASC-nin icra orqanının dəyişdirilməsi.
2. "Xətai-Rabitə-Tikinti" ASC-nin 2024-cü maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.
3. Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 18.00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin idarə heyətinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan- Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X.

**"Xətai-Rabitə-Tikinti" ASC-nin**
**direktorlar (müşahidə) şurası**

### "Binəqədi Yük Avtonəqliyyat–1" ASC səhmdarlarının nəzərinə!

12 iyul 2025-ci il saat 11.00-da "Binəqədi Yük Avtonəqliyyat–1"ASC

səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi.
2. Seçkili orqanların yenidən formalaşdırılması.
3. Digər məsələlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

Ünvan – Bakı şəhəri, Binəqədi rayonu, Xırdalan-Binəqədi şosesi 1N.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 117 (30811) 6 iyun 2025-ci il, cümə

# Mərhəmət və həmrəylik bayramı

**Bu gün xalqımızın həyatında çox əlamətdar və əziz bir gündür. Belə ki, İslam dünyasının əziz, müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində, eləcə də Azərbaycanda böyük təmtəraqla qeyd olunur.**




Qeyd etmək lazımdır ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" qanuna əsasən, Qurban bayramı ölkəmizdə dövlət səviyyəsində qeyd edilir.

Qurban bayramı və ya dini qurban kəsmə bayramı İslam aləmində ən müqəddəs bayramlardan biri sayılır. Bu bayram bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Mərasimlərdə qoyun, qoç, inək, dana və ya dəvə kəsilir. İslam dininin qaydalarına əsasən kəsilən heyvanlar sağlam olmalıdır.

Məlumdudr ki, qurban kəsmə mərasimi İslamdan da əvvəl mövcud olub, lakin o vaxtlar daha çox günahlardan təmizlənmək ritualı sayılıb. Hicri tarixinin (Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsi) ikinci ilindən sonra dini qurban kəsmənin İslam aləmində başqa məqsədləri və səbəbləri yaranıb. Belə ki, bu mərasim müsəlman dünyasında böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələnib.

Xatırladaq ki, qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranıb. Əhvalata görə, yuxuda Allah İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr edir. Bu haqda "Quran"da yazılıb. Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim Peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazırlaşır, İsmayıl özü də qurban olmağa razılaşır. Lakin Allah bunu öz elçisinə rəva bilməyərək ona bir qoç göndərir. Buna görə də Qurban bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər.

Bu müqəddəs gündə müsəlmanlar Allaha olan sədaqətlərini nümayiş etdirmək üçün qurban kəsirlər. İnsanların birliyinə, bir-birinə qarşılıqlı hörmət etməsinə xidmət edən bu bayram ailə dəyərlərinin möhkəmlənməsində də əhəmiyyət daşıyır. İslam dininin qaydalarına görə, kəsilən qurbanlıq 3 yerə bölünə bilər. Bu payların qurban kəsən şəxsin ailəsinə, yaxın qohumlarına və yoxsullara paylanması məsləhət görülür.

Bu günlər Müqəddəs Qurban bayramı ölkəmizdə təşkil olunan müxtəlif mərasimlərlə qeyd olunur. Bu münasibətlə keçirilən müxtəlif xeyriyyə tədbirlərində aztəminatlı ailələrə, məcburi köçkünlərə, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara, şəhid ailələrinə qurbanlıq əti və ərzaq məhsullarından ibarət bayram sovqatı paylanılır.

5 il əvvəl Ali Baş Komandan İlham Əliyevin qətiyyətli liderliyilə xalqımızın igid əsgər və zabitləri doğma Qarabağımızda yüksək milli qeyrət və hünər göstərərk öz tarixi torpaqlarını erməni işğalçılarından azad ediblər. Bu müqəddəs yolda yüzlərlə igid oğullarımız şəhid olub, çox sayda qazilərimiz var. Bu əziz bayram günündə şəhidlərimizin ruhuna dualar oxuyur, qazilərimizə Allahdan tezliklə tam sağalmalarını diləyirik.

Sonda "Xalq qəzeti"nin kollektivi olaraq xalqımızı bu əziz bayram münasibətilə bir daha ürəkdən təbrik edirik. Qoy kəsdiyiniz qurbanlar, oxuduğunuz dualar qəbul olunsun! Qoy qəlbimizdə Allaha sevgimiz daim artsın, xalqımız, dövlətimiz daha güclü və qüdrətli olsun, insanlar sülh və əmin-amanlıq şəraitində, rifah içində yaşayıb yaratsınlar. Qurban bayramınız mübarək olsun!

*MH ACIXANLI*
*XQ*

**İdman**

## Qadın cüdoçularımız Avstriyada



**Azərbaycanın bütün yaş qruplarından olan qadın cüdoçuları Avstriyanın Qrats şəhərində beynəlxalq təlim-məşq toplanışında iştirak ediblər. Bu barədə mətbuata Cüdo Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Toplanışa qadınlardan ibarət yığmanın baş məşqçisi Amina Abdellatif, böyük məşqçi Saşa Herkenrat-Vimar, yeniyetmə qızlardan ibarət milli komandanın baş məşqçisi Elnur İsmayılov və məşqçi Əmrah Əhmədov rəhbərlik ediblər.

Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə iyunun 2-dən 4-nə qədər keçirilmiş təlim-məşq düşərgəsi qarşıdakı beynəlxalq yarışlara hazırlıq məqsədi daşıyıb.

Qeyd edək ki, Macarıstanın paytaxtı Budapeştdə təşkil olunacaq böyüklər arasında dünya çempionatında mübarizə aparacaq qadın cüdoçular hazırlığın növbəti mərhələsini Bakıda, gənc və yeniyetmə qızlar isə Avstriyanın Leybnits şəhərində davam etdirəcək.

## PFL kubokun qalibidir



**Futzal üzrə Azərbaycan Kubokunun qalibi bəlli olub. Belə ki, ölkə kubokunun final qarşılaşmasında "Araz-Naxçıvan" və PFL komandaları üz-üzə gəliblər. "Olimpik Star"da təşkil olunan görüş PFL-in 7:1 hesablı qələbəsi ilə yekunlaşıb.**

Matçı Knyaz Əmiraslanov, Rza Məmmədov və Anar Fərəcovdan ibarət hakimlər briqadası hakimlik edib.

## Almeyda "Neftçi"yə gəlir



**"Neftçi" heyətini yeni futbolçu ilə gücləndirib. Klubdan mətbuata verilən məlumata görə, Benin millisinin dayaq yarımmüdafiəçisi Sessi D Almeyda Bakı klubuna keçib. 29 yaşlı futbolçu ilə 2+1 illik müqavilə bağlanıb.**

Fransanın Bordo şəhərində anadan olan Sessi D Almeyda eyniadlı klubun yetirməsidir. Fransa, İngiltərə, Portuqaliya liqalarında çıxış edib, son mövsümü Kiprin "Apollon" (Limassol) klubunda keçirib. 34 matçda meydana çıxıb, 1 qola imza atdığı Benin milli komandası ilə bu il dekabrın 21-dən 2026-cı il yanvarın 18-dək Mərakeşdə keçiriləcək Afrika Millətlər Kubokuna vəsiqə qazanıb.

*XQ*

## AYB katibi Avropa Elm və Sənət Akademiyasına üzv seçilib




**Şair, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu Avropa Elm və Sənət Akademiyasının həqiqi üzvü seçilib. XQ-yə açıqlamasında S.Babullaoğlu bu haqda xəbəri səfərdə ikən aldığını bildirib:**

"Moldova Respublikasında səfərdə idim. Avropa Elm və Sənət Akademiyasının prezidenti Klaus Maynzer (Klaus Mainzer) və akademiyanın üzvlərlə əməkdaşlıq şöbəsinin rəhbəri İnqrid Firtalerdən (İngrid Vierthaler) bu haqda rəsmi məktub aldım. Bəzi formallıqlar var, yaxın vaxtlarda həll olunacaq. Məktubda qeyd olunur ki, Akademiyanın 35 yaşı, elmin və sənətin müxtəlif sahələrini (humanitar elmlər, tibb, incəsənət, təbiət elmləri, sosial elmlər, hüquq və iqtisadiyyat, texniki və ətraf mühitlə bağlı elmlər, bir də dünya dinləri) təmsil edən dünyadan, xüsusən Avropa ölkələrindən1900 üzv və onların da sırasında 29 Nobel mükafatçısı var. Belə anladım ki, üzvlük 3 kateqoriyadadır: həqiqi üzvlər, fəxri üzvlər, bir də rəyasət. Məni "incəsənət" kateqoriyası üzrə seçiblər, namizədliyimi Rumıniya tərəfi verib. Dəstəkləyənlər də olub, təbii ki. Çünki bildiyim qədərincə, proses seçki ilə baş verir. Akademiyanın mərkəzi ofisi Avstriyada, Zalsburqda yerləşir. Növbəti ilin martında Zalsburqda keçirilən üzvlüyün təqdimatı, yaxud məktubda yazıldığı kimi inaqurasiya mərasimində iştirak üçün də dəvət almışam. Namizədliyimi irəli sürən və dəstəkləyən hər kəsə, şəxsən cənab Klaus Maynzerə təşəkkür edirəm. Ümid edirəm, bunun bizim ədəbi əlaqələrimiz üçün faydası olacaq".

*XQ*

**HAVA**

## Leysan olacaq, dolu düşəcək...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində fasilələrlə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturunun gecə 18-21, gündüz 25-28 isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunu olacaq, nisbi rütubət 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 16-20, gündüz 22-27, dağlarda gecə 5-10, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

*QQ ASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Fövqəladə hallar nazirinin müavini Orucəli Hacıyevə anası

**RAHİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov Prezident Administrasiyasının məsul əməkdaşı Dəyanət Abdullayevə

**BACISININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərsutikinti" SC-nin sədri Yusif Hümbətov Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərsutikinti" SC-nin sədri Yusif Hümbətov Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova qardaşı

**SAAD SAADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3652
SİFARİŞ 1132
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00